Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

20 DEKABR 2019-cu il

№ 227 (4125)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 5 ■

# MƏŞHUR ERMƏNİPƏRƏST KONQRESMENLƏR PALLONE VƏ ŞİFFİN ADI ERMƏNİ FONDU İLƏ KORRUPSİYA QALMAQALINDA...

İlham Əliyevin Avrasiya İB-nin Piter sammitinə xüsusi dəvətinin pərdəarxası... ■ səh. 3 ■

Azərbaycan Ukraynada ermənilərin mənafeyinə hərtərəfli zərbə mövqeyinə çıxdı ■ səh. 8 ■

Ermənistan sülh prosesini pozmaqda davam edir, təcavüzkar ordu isə xaos və cinayət mənbəyi olaraq qalır... ■ səh. 9 ■

Cenevrədə qaçqınlar üzrə qlobal konfransda Azərbaycanın adı çəkilmədi... ■ səh. 5 ■

İŞİD təhdidi Ermənistanın siyasəti üzündən Cənubi Qafqazı da təhlükə altına alır ■ səh. 7 ■

Laçında quldur Andranikə heykəl? ■ səh. 10 ■

İsa Qəmbərin məğlub olduğu dairədən Arif Hacılı özünü sınayır - Sərdar Cəlaloğlu da hücuma keçdi... ■ səh. 4 ■

İstanbulu Avropadan tam ayıran böyük gəmi kanalı... ■ səh. 12 ■

Manatla əmanətlərdə fantastik artım - yeni proses... ■ səh. 13 ■



■ səh. 2 ■

## Pambıqçılığın köhnə şöhrəti qayıdır, 294 min ton - Prezident rekorda aparan işləri təhlil etdi



### Yüksək vəzifəli icra məmurlarının və övladlarının həbsinə YAP-dan reaksiya...

■ səh. 3 ■




### Lavrovun «acı bəyanatı» - Azərbaycan Şərq Tərəfdaşlığı üzvü kimi seçimdə qoyulacaqmı...

■ səh. 6 ■

### Müsavat seçkiyə partiya kimi yox, fərdi namizədlər toplusu kimi gedir - planın arxasında pul məsələsi...

■ səh. 4 ■

■ səh. 2 ■

Müsavat Partiyası 9 fevral seçkilərində nə əldə edəcəyini artıq müəyyənləşdirib



■ səh. 6 ■

Adını demokrat qoymuş Paşinyan özündən əvvəlki bir prezidenti də "məhv etdi"...



■ səh. 11 ■

Ermənilərin Qarabağda dağıtdıqları mədəniyyət abidələri barədə beynəlxalq təşkilatlardan bircə reaksiya varmı...



■ səh. 13 ■

Nazir Ceyhun Bayramov yeni imtahanlar modelini tam zəruri edən çağırışları təhlil etdi...



■ səh. 14 ■

Azərbaycanda distant və onlayn təhsilin tam tətbiqinə nə mane olur...



## Konqresin Nümayəndələr Palatası Trampın "işini bitirdi", qaldı Senat...

**ABŞ Nümayəndələr Palatası Prezident Donald Trampı öz siyasi maraqları xatirinə prezident səlahiyyətlərindən sui-istifadə etməkdə ittiham edərək onun impiçmentinə səs verib.**

Demokratların çoxluqda olduğu Palata "səlahiyyətlərindən sui-istifadə etmək" və "Konqres araşdırmasını əngəlləmək" ittihamlarından ibarət iki impiçment maddəsini təsdiq edib.

Nümayəndələr Palatası Trampın impiçmentini səsvermədən öncə altı saat debat edib. Həmin saatlarda Demokrat qanunvericilər Trampın impiçmentə layiq olduğunu irəli sürüblər. Prezidentin Respublikaçı tərəfdarları isə Trampın Ukrayna hökumətini sabiq vitse-prezident və 2020-ci il seçkilərində mümkün rəqibi Co Bayden və onun oğlu Hanter Bayden üzərində təhqiqata çağırmaqla yanlışlığa yol vermədiyini iddia ediblər.

Səsvermədə bütün respublikaçılar qərarın əleyhinə səs verib. İlk səsvermədə 2, ikincidə isə 3 demokratın qərarın əleyhinə çıxması diqqətlərdən yayınmayıb.

Bununla Tramp 243 illik ABŞ tarixində Nümayəndələr Palatasında haqqında impicment maddələri səsverməyə çıxarılan üçüncü prezident oldu.

Məddələrin yer aldığı dosye Trampın mühakimə və vəzifədən kənarlaşdırılmasına dair son qərarın verilməsi üçün Senata göndərilib. Bununla bağlı ilk iclas gələn ayın əvvəllərində başlamalıdır və Senat işi 6 ay ərzində yekunlaşdırmalıdır.

Qeyd etdiyimiz ki, Nümayəndələr Palatasında əsas çoxluq Demokratlardan ibarətdir. Elə buna görə, də Trampın əleyhinə olan layihənin Nümayəndələr Palatasından keçəcəyi əvvəlcədən şübhə doğurmurdu. İndi isə Trampın impicmenti üçün senatorların 2/3-nin dəstəyi alınmalıdır, ancaq Nümayəndələr Palatasından fərqli olaraq, Senatda çoxluq Respublikaçıların əlindədir. Bu isə işin Senatdan keçmə ehtimalını sıfıra endirir.

Ağ Ev Nümayəndələr Palatasının prezident Donald Tramp əleyhinə iki maddəni təsdiqləməsinə münasibət bildirib. Açıqlamada "Bu gün millətimiz tarixinə Nümayəndələr Palatasının ən utancverici siyasi dönəmlərindən biri olaraq keçdi" ifadələrinə yer verilir.

Qeyd edək ki, iyulun sonunda Ukrayna prezidenti Volodimir Zelenski ilə telefon danışığında Baydenlər üzərində təhqiqata çağıran Tramp həmin vaxt Rusiyapərəst separatistlərlə müharibə aparan Kiyevə çatacaq 391 milyon dollarlıq hərbi yardımı müvəqqəti dayandırmışdı. Tramp sonradan həmin vəsaitin Ukrayanya verilməsini təsdiqləmişdi ki, bir çox Respublikaçıların nəzərində bu, quid pro quo - yəni Baydenlər üzərində təhqiqat müqabilində Ukraynaya hərbi yardımın verilməsi barədə ittihamları heçə endirir.

# Pambıqçılığın köhnə şöhrəti qayıdır, 294 min ton - Prezident rekorda aparan işləri təhlil etdi

**Dekabrın 19-da Prezident İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı müşavirə keçirilib.**



Respublika üzrə pambıq yığımının başa çatdığını, bu il rekord həddə - 294 min ton pambıq yığıldığını, məhsuldarlığın orta hesabla hər hektardan 29,4 sentner təşkil etdiyini deyən Prezident İlham Əliyev bildirib ki, bu, son illərdə pambıqçılığın inkişafı ilə bağlı görülən tədbirlərdən, bu sahəyə dövlət dəstəyindən irəli gəlir.

"Pambıqçılıq bizim üçün ənənəvi kənd təsərrüfatı sahəsidir", - deyən dövlət başçısı bu sahədə ən sürətli artım illərinin Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünə təsadüf etdiyini vurğulayıb. Qeyd edib ki, ötən əsrin 80-ci illərinin əvvəlində məhsuldarlıq 30 sentnerə yaxınlaşıb, pambıq tədarükü 800 min ton səviyyəsində olub, 1981-ci ildə bu rəqəm 1 milyon tona qalxıb.

Müstəqillik dövrünün ilk illərində pambıqçılıqda müşahidə olunan problemlərdən danışan Prezident İlham Əliyev son illərdə bu sahəyə xüsusi diqqət göstərildiyini, yeni texnikaların alındığını, dövlət proqramının qəbul olunduğunu diqqətə çatdırıb. Bildirib ki, son 3 ildə 15 min 700 texnika alınıb, bu isə pambığın 87 faizinin texnika ilə yığılmasına imkan verib, suvarma tədbirləri görülüb, fermerlərə güzəştli kreditlər, istehsalçılara subsidiyalar verilib, pambıqtəmizləmə zavodlarında yenidənqurma işləri aparılıb, pambığın satınalma qiymətləri artırılıb. Hazırda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan əməyə cəlb olunub.

Sonra Kənd təsərrüfatı naziri İnam Kərimov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, "MKT İstehsalat Kommersiya" MMC-nin baş direktoru Rövşən Həsənov, "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadə, Azərbaycan Sənaye Korporasiyasının baş direktoru Kamran Nəbizadə, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev və Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov məruzə edib.

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev bu il pambıqçılıq sahəsində əldə edilən nəticələrin sevindirici olduğunu, pambıqçılığın gəlirli və əməktutumlu sahəyə çevrildiyini bildirib.

Dövlət başçısı pambıqçılığın daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini də verib.

# Müsavat Partiyası 9 fevral seçkilərində nə əldə edəcəyini artıq müəyyənləşdirib

*Qanunsuz mühacir alveri ilə çirkli pullar qazanan bir partiya xalqdan hansı üzlə səs istəyəcək?*

**Azərbaycanda növbədənkənar parlament seçkilərinə qatılmaq yolunda siyasi partiyalara hər hansı bir maneə törədilmir. Amma seçkidə iştirak etmək iddiasını artıq ortaya qoymuş bəzi müxalif partiyaların qərarı çoxsaylı suallar doğurmağa başlayıb.**



Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. Onun sözlərinə görə, bəzi hallarda ictimai-siyasi dairələrdən gələn suallar artıq bir sıra müxalif partiyaların seçki platformasına cəmiyyətin hansı münasibət göstərdiyini qabaqcadan təyin etməyə imkan verir: "Qətiyyətlə demək mümkündür ki, müəyyən müxalifət qüvvələrinin ictimai reputasiyasında ciddi problemlərin olması onların seçki nəticələri barədə ən bədbin fikirlər söyləməyə əsas verir.

Seçkidə iştirak etmək istəyən partiyalar arasında Müsavat partiyası bu cəhətdən daha "parlaq obyekt" kimi müzakirələrin mərkəzində görünür. Cəmiyyətin bu partiya haqqında kifayət qədər geniş məlumatları olsa da, bu məlumatlar əslində onun seçkidə hər hansı uğuruna yox, tam uğursuzluğuna işləyir. İctimai rəydə dolaşan konkret kompromat xarakterli faktlar əslində Müsavatın taleyini pis mənada bu başdan həll etmək gücündədir. Müsavat və onun lideri İsa Qəmbər bir illik AXC hakimiyyətinin biabırçı tarixi iflasının əsas müqəssirlərindən biri kimi ictimai yaddaşlarda qalıb, siyasi sistemin ən stajlı təşkilatı olsa da, 27 ildə ciddi bir seçki uğuruna imza ata bilməyib. Bütün fəaliyyəti hakimiyyətin ünvanına ittihamçı və yorucu şüarçılıqdan ibarət olub. Bir vaxtlar ətrafında müəyyən sayda ziyalılar olsa da, bu gün bütün ziyalı ordusunu özünə qarşı yönəldib. Radikal ittihamçı kursa görə xalqın mütləq əksəriyyəti onun siyasətini pisləyir. Seçki proseslərində rüsvayçı saxtakarlıqların baş verdiyini hətta öz üzvləri açıb-tökürlər, bu gün cəmiyyət Müsavatı özünə demokratik və şəffaf başqan seçməyi bacarmayan təşkilat kimi tanıyır".

Ekspert vurğulayıb ki, bu partiyanın seçki ərəfəsində keçirdiyi dərin nüfuz böhranına ən sarsıdıcı zərbəni Almaniyada ifşa olunmuş qanunsuz mühacir alverində iştirak faktları vurdu: "Qanunsuz mühacir biznesində Müsavat rəhbərliyinin və üzvlərinin iştirakına dair o qədər konkret faktlar ortaya qoyuldu ki, bunları nəzərə almadan partiyanın hansı qələbə ümidlərilə seçkiyə qatıldığını təsəvvür belə etmək çətindir. Həm də faktların Almaniya polisi tərəfindən aşkarlanması Müsavatın bunu Azərbaycan hakimiyyətinin üzərinə atmaq imkanlarından tam məhrum etdi".

A.Quliyev əlavə edib ki, cəmiyyət indi Müsavatın seçki qələbələri barədə yox, "qanunsuz transmilli mühacir alveri ilə çirkli pullar qazanan bir partiya xalqdan hansı üzlə səs istəyəcək" sualı üzərində düşünür:"Göründüyü kimi, sualın məntiqi və tonu o qədər ittihamçıdır ki, cəmiyyət Müsavatın siyasi səhnədə yenidən baş qaldırmasını istəmir, bunu mümkün saymır və bir illik dağıdıcı hakimiyyət partiyası kimi bir daha dövlət idarəçiliyində iştirakını məqbul hesab etmir. Tarixi uğursuz reputasiyası hətta cinayətkar biznes elementləri ilə ləkələnmiş, ictimai rəyə heç bir təsir gücü olmayan, perspektivi ciddi görünməyən və sosial bazası tam dağılmış Müsavatın seçki iflası bu başdan məlumdur. Partiyanın irəli sürdüyü namizədlərin ayrılıqda cəmiyyət üçün mötəbər və xarizmatik şəxslər sayılmaması da onun iflas sonluğunu hazırlayan tutarlı faktorlardandır".

# İlham Əliyevin Avrasiya İB-nin Piter sammitinə xüsusi dəvətinin pərdəarxası...

**Dekabrın 20-də Sankt-Peterburqda Avrasiya İttifaqı İqtisadi Şurasının (AİİŞ) qeyri-formal sammiti keçiriləcək. Azərbaycan Prezidenti İlham Əliyev də sözügedən tədbirdə iştirak edəcək. Rusiya Prezidenti Vladimir Putin bir müddət əvvəl Prezident İlham Əliyevi həmin görüşə dəvət edib.**

*"Qarşı tərəf Aİİ ilə Azərbaycan arasında iqtisadi əlaqələrin dərinləşməsində maraqlıdır"*

Onu da qeyd edək ki, Rusiya Prezidenti Vladimir Putin AİİŞ-ə daxil olmayan MDB ölkələrinin liderlərini qeyri-formal sammitə hələ oktyabr ayında dəvət edib. Sankt-Peterburqda AİİŞ-nin qeyri-rəsmi zirvə görüşü zamanı bir sıra məsələlərin müzakirə ediləcəyi gözlənir.

Rusiya mətbuatının yazdığına görə, prezidentlər İlham Əliyev və Vladimir Putin Sankt-Peterburqdakı zirvə toplantısında görüşəcəklər.

Azərbaycan Aİİ-nin üzvü olmasa da, sözügedən qurumda təmsil olunan Ermənistanı çıxmaq şərtilə, digər ölkələr Azərbaycanla əməkdaşlığa xüsusi önəm verirlər.

Bu ölkələrin Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək səviyyədədir. Hətta Aİİ-nin bəzi tədbirlərində belə, Azərbaycanın maraqlarının nəzərə alınması gündəmə gəlib. Yeni Azərbaycan qurumda o dərəcədə yüksək hörmətə malikdir.

Bütün bunların fonunda, Prezident İlham Əliyevin sözügedən sammitə xüsusi dəvət olunması nə deməkdir? Ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu, Azərbaycana verilən xüsusi önəmin göstəricisidir: "Azərbaycan Aİİ-nin üzvü deyil. Ancaq həmin tədbirə ölkə başçısının dəvət edilməsi ölkəmizə verilən xüsusi önəmin göstəricisidir. Düzdür, həmin tədbirdə digər Aİİ üzvü olmayan dövlətlərin də başçıları iştirak edəcək, amma reallıq odur ki, Azərbaycan-Rusiya münasibətləri çox yaxşıdır. Xüsusən də İlham Əliyevlə Vladimir Putinin münasibətləri kifayət qədər yaxındır. Bunu bir sıra görüşlər də təsdiq edir. O baxımdan, Prezident İlham Əliyevin tədbirə dəvət olunması Azərbaycanın nüfuzunun göstəricisidir. Bu, Azərbaycanın bir sıra istiqamətlərdə atdığı addımlarla bağlıdır. Söhbət həm iqtisadi, həm də xarici siyasət sahəsində ölkəmizin atdığı uğurlu addımlardan gedir. Hesab edirəm ki, bütün bunlar özlüyündə Azərbaycanın dünyada oynadığı rolu və yeri ilə bağlıdır. Rusiya bunu dərk edir.

***Fikrət Sadıqov:** "Həmin tədbirə ölkə başçısının dəvət edilməsi ölkəmizə verilən xüsusi önəmin göstəricisidir"*



**O üzdən, bizim dövlət başçımızın orada iştirak etməsi iki ölkə münasibətlərinin daha da yaxşılaşmasına xidmət edəcək. Nəzərə almaq lazmdır ki, İlham Əliyevin Putinlə ikitərəfli görüşü olacaq. Rusiya rəhbərliyi Azərbaycanın çoxşaxəli potensialının fərqində olduğu üçün ölkəmizə xüsusi önəm verir. Aİİ ilə Azərbaycan arasında iqtisadi əlaqələrin dərinləşməsində maraqlıdır".**

***Vidadi ORDAHALLI***

# Yüksək vəzifəli icra məmurlarının və övladlarının həbsinə YAP-dan reaksiya...

**Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev və onun müavini Ramiz Tatarov hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanıb.**

Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, bu barədə KİV-lər məlumat yayıb.

Onların saxlanmasının səbəbi açıqlanmır.

Nizaməddin Quliyev 2019-cu il aprelin 5-də Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.

Qeyd edək ki, Sabirabad rayon sakini Fariz İxtiyar oğlu Ağayev də polis əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri zamanı saxlanıb. Onun üzərinə baxış zamanı narkotik maddə aşkarlanıb. Fariz Ağayev Yeni Azərbaycan Partiyasının (YAP) Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayevanın oğludur.

Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini Siyavuş Novruzov məsələyə münasibət bildirib. Deyib ki, vəzifəsindən və səlahiyyətlərindən asılı olmayaraq, hər bir şəxs qanun qarşısında cavab verməlidir.

S.Novruzovun sözlərinə görə, ölkə ərazisində yaşayan hər bir şəxs Azərbaycan Respublikasının qanunları qarşısında bərabərhüquqludur: "Hansı partiya üzvlüyündən, hansı peşə sahibi olmasından, hansı vəzifəni daşımasından asılı olmayaraq, əgər şəxs cinayət törədibsə və bu, məhkəmə qaydasında sübuta yetirilirsə, o, məsuliyyət daşıyır. Yeni Azərbaycan Partiyasının mövqeyi həmişə belə olub. İstər YAP üzvü olsun, istər digər siyasi partiya təmsilçisi, fərqi yoxdur. Onlar da hər bir sadə vətəndaş kimi eyni hüquqa malikdir. Bu baxımdan da partiya təmsilçiləri qarşısında belə bir məsələ qoymuşuq ki, siz çox ciddi məsuliyyət daşıyırsınız. Bəzən görürsən ki, ayrı-ayrı siyasi partiyaların nümayəndələri bu və ya digər şəkildə ictimai təhlükəli əməl törədirlər və partiya qalxasının arxasında gizlənməyə cəhd edirlər. İfşa olunduqda isə həmin partiya rəhbərləri Avropa Şurasına, başqa-başqa qurumlara müraciətlər edirlər. Onlar istəyirlər ki, törətdikləri əməli ört-basdır etsinlər".




**YAP funksioneri əlavə edib ki, demokratiya, insan hüquq və azadlıqları hər bir şəxsin törətdiyi əmələ görə cavabdehlik daşımasını tələb edir. O baxımdan, Yeni Azərbaycan Partiyasının hər bir üzvü də qanun qarşısında bərabərdir.**

# Müsavat seçkiyə partiya kimi yox, fərdi namizədlər toplusu kimi gedir - planın arxasında pul məsələsi...

**Xəbər verildiyi kimi, Azərbaycanda 2020-ci il fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcək siyasi partiyaların sayı 11-ə çatıb. Mərkəzi Seçki Komissiyasının (MSK) son iclasında növbədənkənar parlament seçkilərində iştirak etmək üçün müraciət edən 2 siyasi partiyanın səlahiyyətli nümayəndələrinin qeydiyyata alınması məsələsinə baxılıb. İclasda Vahid Azərbaycan və Ana Vətən partiyalarının səlahiyyətli nümayəndələri qeydə alınıb.**




*Məhərrəm Zülfüqarlı: "Görünür, son mühacir qalmaqalına görə Müsavatın sənədlərində ciddi problemlər olduğu üçün, ora rəsmi müraciət etmək istəmir"*

*Gülağa Aslanlı: "Bütün variantlardan istifadə edəcəyik"*

Xatırladaq ki, bundan əvvəl növbədənkənar parlament seçkilərində iştirakla bağlı MSK-ya 9 siyasi partiya müraciət etmişdi. Bunlar Yeni Azərbaycan Partiyası (YAP), Ümid Partiyası və Vətəndaş Həmrəyliyi Partiyası (VHP), Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Demokrat Partiyası, Böyük Azərbaycan Partiyasıdır.

Maraqlıdır ki, hamıdan əvvəl namizədlərini cəmiyyətə açıqlayan və seçkidə iştirakını bəyan edən Müsavat Partiyasının adı MSK-nın elan etdiyi siyahıda yoxdur. Müsavatın daxilindəki mənbələrimizdən əldə etdiyimiz məlumata görə, partiyanın seçkilərdə iştirakla bağlı MSK-ya müraciət etməməsinin arxasında müəyyən maraqlar durur. Bildirilir ki, partiyadan deputat seçilmək şansı olan bəzi funksionerlər bununla bağlı şərt irəli sürüblər. Onlar iddia edirlər ki, fərdi qaydada deputat seçilmək şansları var, ancaq partiya təmsilçisi kimi rəsmiləşmiş qaydada parlamentə düşsələr, onda dövlət büdcəsindən Müsavatın maliyyələşməsi həyata keçirilməlidir. Özünü şanslı sayan müsavatçılar hesab edirlər ki, məhz bu amil onlara deputat seçilmək üçün müəyyən maneçiliklər törədə bilər. Müsavatın bu taktikası ilə bağlı özlərinin və kənar ekspertlərin mövqeyi necədir?

Seçki prosesləri ilə bağlı kifayət qədər təcrübəsi olan professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun bir sıra səbəbləri ola bilər: "Bilirsiniz ki, Azərbaycanda seçki partiya siyahısı üzrə keçirilmir. Yəni yalnız majoritar qaydadadır. 2000-ci ilə qədər isə hər iki qaydada seçkilər keçirilirdi. Yəni seçicilər həm də bülletendə partiyaların adına səs verirdilər. Toplanan səslərin faizinə görə, partiyaların siyahısına uyğun şəkildə deputatlar Milli Məclisdə təmsil olunurdular. İndisə partiya siyahısının elan olunması simvolik məsələdir. Yəni hansı dairədən kimin namizədliyinin verilməsini partiya müəyyənləşdirir və bütün üzvlərinə çağırış edir ki, həmin namizədi müdafiə etsinlər. Ancaq bu da var ki, partiyanın seçkilərdə iştirakla bağlı MSK-dan qeydiyyatdan keçməsi proseduru da bir qədər fərqlidir. Onda partiyanın seçkilərdə iştirakı tam rəsmiləşmiş olur. MSK-ya təqdim olunan sənədlərdə partiyanın səlahiyyətli nümayəndələrinin adları təqdim olunur. Onlar partiyanın adından MSK-da danışırlar. Mənə elə gəlir ki, Müsavatın MSK-ya müraciət etməməsi səbəbinin biri də sənədlərinin qaydada olmamasıdır. Belə olan halda, partiyadan maliyyə hesabatı tələb olunur. Görünür, son mühacir qalmaqalına görə Müsavatın sənədlərində ciddi problemlər olduğu üçün, ora rəsmi müraciət etmək istəmir".

Müsavat başqanının müavini Gülağa Aslanlı isə qəzetimizə açıqlamasında bu məsələ ilə bağlı bir qədər mücərrəd fikir bildirdi. Onun sözlərinə görə, seçkilərdə həm partiya, həm də üzvlərinin müstəqil şəkildə iştirakında maraqlıdırlar: "Bütün variantlardan istifadə edəcəyik. Həm də namizədlərə səlahiyyət verəcəyik ki, kim istəsə, sənədlərini müstəqil təqdim etsin, kim də istəsə, partiya adından. Artıq müəyyən sənədləri MSK-ya təqdim etmişik. Buna baxmayaraq, bütün namizədlər partiya tərəfindən irəli sürülür".

***Məhəmmədəli QƏRİBLİ***

# İsa Qəmbərin məğlub olduğu dairədən Arif Hacılı özünü sınayır - Sərdar Cəlaloğlu da hücuma keçdi...

**Müsavat Partiyası gələn il 9 fevralda keçiriləcək növbədənkənar parlament seçkiləri ilə bağlı namizədlərini açıqlayıb. İddiaçılar sırasında əsas diqqəti partiyanın hazırkı başqanı Arif Hacılının 15 saylı Yasamal Birinci Seçki Dairəsindən namizədliyini irəli sürməsi çəkib.**



*Sərdar Cəlaloğlu: "Arif Hacılı mənimlə görüşmədi və məhz namizədliyimi irəli sürdüyüm dairəni seçdi"*

Məlumat üçün qeyd edək ki, əvvəlki seçkilərdə bu dairədən Müsavatın sabiq başqanı İsa Qəmbər namizəd olub və seçkinin nəticələrinə görə qalib olmayıb. Digər maraqlı məqam isə bununla bağlıdır ki, sözügedən dairədən başqa bir müxalif partiyanın sədri də namizədliyini irəli sürüb. Adətən, namizədlər daha çox özlərini seçkilərdə yaşadıqları və doğulduqları ərazilərdən daha çox sınamaqda maraqlı olurlar. Ancaq nəzərə alsaq ki, Arif Hacılı və ADP sədri həmin dairə ilə bağlı deyilən parametrləri özlərində cəmləmirlər, onda iki müxalif partiya sədrinin Yasamal birinci dairəsində cəlb edən nədir ki, onlar hətta buna görə müxalif mövqeli insanların səslərinin parçalanmasına razı olurlar?

ADP sədri Sərdar Cəlaloğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, artıq o, həmin dairədən namizədliyinin qeydə alınması üçün bütün sənədləri təqdim edib: "Mən artıq imza toplamağa başlamışam. Bu məsələdə mənim heç bir təqsirim yoxdur. Çünki hamıdan əvvəl mən həmin dairədən namizədliyimi verəcəyimi açıqladım. Sonra eşitdim ki, Arif Hacılı da oradan namizədliyini irəli sürmək niyyətindədir. Belə vəziyyət müxalif səslərin parçalanmasına ciddi təsir edəcək. Bu həm də müxalifət daxilindəki siyasi mədəniyyətin hansı səviyyədə olmasını cəmiyyətə göstərir. Faktiki olaraq, biz bir-birimizlə mübarizə aparmalı olacağıq. Mən o dairədən qalib gələcəyimə əminəm. Amma Arif bəyin məhz məndən sonra gətirib həmin dairədən namizədliyini irəli sürməsi maraqlıdır. Seçkilər elan olunmamışdan əvvəl biz danışmışdıq ki, görüşüb funksional əməkdaşlıqla bağlı söhbət edək. Yəni elə edək ki, bir-birimizə alternativ ortaya çıxarmayaq. Amma mənimlə görüşmədi və məhz namizədliyimi irəli sürdüyüm dairəni seçdi. Hələ Arif Hacılı sənədlərini də dairəyə təqdim etməyib".

"Bunun İsa Qəmbərin həmin dairədən bir vaxt namizəd olması ilə bir əlaqəsi ola bilərmi" sualına isə Sərdar Cəlaloğlu belə cavab verdi: "Axı o zaman İsa Qəmbər seçkinin qalibi olmadı ki, bu onlara əlavə avantaj gətirsin. Uduzdu deyə də bilmərəm, amma, faktiki olaraq, uduzduruldu. Mənim həmin dairəni seçməyimin bir səbəbi də budur. Başqa bir səbəb isə ərazinin mənə doğma və tanış olmasıdır. Mən tələbəlik illərində 5 il orada kirayədə qalmışam. Əslində, mən gedib Naxçıvandan da namizədliyimi verə bilərəm. Yəni doğulduğum yer baxımından. Onda da partiyanın seçkilərdə iştirakı prosesinə rəhbərlik edə bilmərəm. Çünki məsafə uzaqdır, həm də başım qarışar ora, proseslərə nəzarət etmək imkanım zəifləyər. Hesab edirəm ki, mən Azərbaycanın istənilən rayonundan namizədliyimi verib, istənilən adama da qalib gələ bilərəm. Bununla bağlı problemim yoxdur. Sübut olunur ki, mənim məhz oradan namizədliyimi irəli sürməyim hər hansı bir başqa niyyətə hesablana bilməz".

Mözvu ilə bağlı mövqeyini öyrənmək üçün gün ərzində Müsavat başqanı Arif Hacılı ilə əlaqə saxlamaq cəhdlərimiz alınmadı.

***Məhəmmədəli QƏRİBLİ***

# Məşhur ermənipərəst konqresmenlər Pallone və Şiffin adı erməni fondu ilə korrupsiya qalmaqalında...

**ABŞ Nümayəndələr Palatasının bir sıra konqresmenlərinin "Ermənistan Fondu"nu dəstəkləməsi xarici müdaxilə ilə bağlı qalmaqala gətirib çıxara bilər. Bu barədə "The Daily Wire"də dərc olunmuş məqalədə deyilir. Məqalədə uzun müddət erməni lobbisini dəstəkləyən qanunvericilərin ikili standartlar mövqeyi tutması ifşa edilir.**

Nümayəndələr Palatasının üzvü Adam Şiff başda olmaqla Konqresdə Trampın impiçmenti üzrə işin araşdırılması ilə məşğul olan bir qrup qanunverici Amerika KİV-ində Tramp administrasiyasının güman edilən korrupsiyasının və başqa dövlətin rəhbərliyinin ABŞ-da seçki prosesinə cəlb edilməsinin təhqiqatı ilə bağlı "xəbərlər yaratmaqda" davam edir. Müəllif qeyd edir ki, Adam Şiff və onun həmkarları əvvəlcə "öz evlərində qayda yaratmalıdırlar": "Belə adlandırılan Ümumerməni "Hayastan" fondu ("Ermənistan fondu") yaxın vaxtlarda keçirdiyi illik telemarafon zamanı cəmi 10 milyon dollar yığıb. Xatırladaq ki, bir il bundan əvvəl fondun direktoru Ara Vardanyan ona etibar edilmiş maliyyə vəsaitlərindən qanunsuz istifadəyə, pul vəsaitlərini israf etdiyinə görə ittiham üzrə həbs edilib. Müqayisə üçün qeyd edək ki, 2018-ci ildə həmin telemarafon zamanı 11,1 milyon dollar, 2017-ci ildə 12,5 milyon dollar, 2016-cı ildə 15,4 milyon dollar, 2008-ci ildə isə 35 milyon dollar yığılmışdı. Göründüyü kimi, məbləğ azalmaqda davam edir".

Müəllif vurğulayır ki, məsələn, demokratlar Adam Şiff, Ceki Şpeyer, Frenk Pallone, Tulsi Qabbard və Bred Şerman illər boyu bu "azalan fond"un tərəfdarları və telemarafonun qonağıdırlar. Onlar hamısı Trampın impiçmentinin qızğın tərəfdarlarıdır.

Məqalədə qeyd olunur ki, bu demokratların belə fəal dəstəklədiyi "Ermənistan fondu"nun özünün ABŞ-ın daxili işlərinə xarici müdaxilədə əli var: "Artsax" termini ermənilər tərəfindən Dağlıq Qarabağ - BMT-nin Ermənistanı pisləyən qətnamələrinə rəğmən erməni qoşunları tərəfindən işğal edilmiş Azərbaycan ərazisi barəsində istifadə olunur.

Erməni fondu "məktəblər, yollar, xəstəxanalar və ictimai mərkəzlər" kimi infrastruktur layihələrini gözə soxarkən, əslində, olmağı planlaşdırdığı "məsum humanitar qrup"dan bir qədər uzaqlaşır. Fondun filialları özündə ABŞ-ın Ermənistan və Dağlıq Qarabağı daha çox maliyyələşdirməsi üçün Konqresdə kampaniya aparan iki siyasi lobbini - Amerika Erməni Məclisini, Amerika Milli Erməni Komitəsini (ANCA) cəmləşdirir. Erməni lobbilərinin fəaliyyətləri, əsas etibarilə, Ermənistan və Azərbaycanı sülhdən uzaqlaşdırmağa, o cümlədən, ANCA-nın Madrid prinsiplərini rədd etməsinə xidmət edir. Ermənistan Fondunun rəhbəri Vardanyanın 2018-ci ilin iyul ayında həbs edilməsi artıq ictimaiyyəti siyasi cəbhə kimi aldadan bir qurumdakı





korrupsiyanı ifşa etdi. Fonda qoyulan ianələrin azalması postsovet ölkələrindən ən az müstəqil olan Ermənistanın kiçilməsini daha geniş miqyasda əks etdirir".

O da məlum olub ki, adıçəkilən konqresmenlər vəsait yığımı və lobbiçilik üzrə erməni-amerika aparatından uzaqlaşmasalar, onlar praktik olaraq xarici təsir və Prezidentin impiçmenti haqqında müzakirələrdə cəmiyyətin etimadını qazana bilməyəcəklər.

Əslində, sözügedən konqresmenlərin erməni lobbisinin təsiri altına düşüb korrupsiyaya bulaşması yeni hadisə deyil. Çünki onların davamlı olaraq ermənilərin maraqlarından çıxış etməsi bunun göstəricisi idi. Sadəcə, hər dəfə bu, ustalıqla gizlədilirdi. Təəsüflər olsun ki, ABŞ rəsmiləri vaxtında bunu görmədilər. Məsələ ondadır ki, adətən, Konqresə keçirilən seçkilər zamanı namizədlərin fondları olur. Ştatın vətəndaşları hansı namizədə dəstək verirlərsə, seçki kampaniyası zamanı həmin namizədin fonduna vəsait köçürə bilər. Qanun buna məhdudiyyət qoymur. ABŞ-da ermənilərin kompakt yaşadığı ştatlarda namizədlər bu cür ələ alınıb. Yəni ermənilər hər seçki dönəmində həmin konqresmenlərin kampaniyasına maddi dəstək verməklə, sonrakı dövrdə konqresmenlərdən öz məqsədləri üçün istifadə edirlər. Erməni lobbisi bir sıra konqresmenləri məhz bu cür ələ alıb.

Ancaq indi bəlli olur ki, məsələ təkcə bununla məhdudlaşmayıb. Adam Şiff, Frenk Pallone kimi məşhur ermənipərəst konqresmenlər "Hayastan" fondundakı mənimsəmələrdə bu və ya digər dərəcədə iştirak ediblər. Mənimsənilən vəsaitdən onlara da "pay" düşüb. Səslənən faktlar açıq-aşkar adıçəkilən konqresmenlərin korrupsiyaya bulaşmasının göstəricisidir. Bu isə birbaşa qanuna zidd olmaqla yanaşı, ABŞ-ın imici üçün ciddi ləkədir. O üzdən, qanunlara hörmət edilsə, həmin konqresmenlərin yenidən seçilməsi mümkün deyil. İllərlə Azərbaycan və Türkiyə siyasiləri bir sıra konqresmenlərin erməni lobbisi ilə əlaqələrində qaranlıq məqamların olduğunu desələr də, qarşı tərəf bu fikirlərin siyasi motivlərlə bağlı olduğunu əsas götürərək buna ciddi yanaşmadı. Maraqlıdır, bəs son yaşanan biabırçılıqlara nə ad verəcəklər?!

***Vidadi ORDAHALLI***

# Cenevrədə qaçqınlar üzrə qlobal konfransda Azərbaycanın adı çəkilmədi...

***İbrahim Mirzəyev:*** *"Qaçqınlarla bağlı məsələyə digər qurum baxır"*

***Miqrasiya Xidməti:*** *"DMX-nin rəisi Vüsal Hüseynov forumun plenar sessiyasında çıxış edərək qaçqınların sayının, eləcə də..."*

**İsveçrənin Cenevrə şəhərində dünyanın qaçqın böhranının həlli ilə bağlı üçgünlük sammit keçirilib. Minlərlə nümayəndə heyəti, o cümlədən 100 ölkədən nazirlər Birləşmiş Millətlər Təşkilatının Qlobal Qaçqın Forumunda iştirak ediblər. Onlar münaqişələr səbəbilə evlərindən didərgin düşən on milyonlarla qaçqına yardım etməyin yollarını müzakirə ediblər.**



Avropanın qaçqın böhranı artıq əvvəlki qədər müzakirə olunmasa da, minlərlə miqrant hələ də daha yaxşı həyat axtarışında Avropa sahillərinə gəlməyə davam edir. Avropa İttifaqının sərhəd ölkələrində, məsələn, Bosniyada müvəqqəti düşərgələrin sayı artmaqdadır. Bu düşərgələr Avropanın sərhədlərini gücləndirməyə davam etdiyi bir vaxt insanların Qərbdə yeni həyat qurmaq xəyallarının qırıldığını əks etdirir.

Türkiyə üç milyon yarımdan çox qaçqına evsahibliyi edir. Onların əksəriyyəti Suriyadakı müharibədən qaçıb. Prezident Rəcəb Tayyib Ərdoğan da Cenevrədəki forumda iştirak edənlər arasında olub. Qaçqın böhranı təkcə Avropa ilə məhdudlaşmır. Banqladeşdə çadırlarda hərbi hücum nəticəsində Myanmadan qaçan 750 minə yaxın Rohinca qaçqını yaşayır.

Maraqlıdır ki, söügedən tədbirdə Azərbaycanın heç adı çəkilməyib. Hansı ki, Azərbaycanda 262 min qaçqın var. Maraqlıdır, Azərbaycan həmin tədbirə dəvət edilibmi?

Məsələ ilə bağlı Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri İbrahim Mirzəyevlə əlaqə saxladıq. O bu məsələnin onların səlahiyyətində olmadığını bildirdi: "Biz məcburi köçkünlərlə bağlı məsələyə baxırıq. Qaçqınlarla bağlı məsələyə digər qurum baxır. Əvvəllər qaçqınlarla bağlı məsələ QMKİDK-nin səlahiyyətində idi. Artıq buna Dövlət Miqrasiya Xidməti baxır. Onlardan öyrənin".

Dövlət Miqrasiya Xidmətindən isə "Bakı-Xəbər"ə bildirildi ki, tədbirdə Azərbaycan da iştirak edib: "Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Vüsal Hüseynov rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və İsveçrə Hökumətinin birgə təşkilatçılığı ilə dekabrın 17-18-də Cenevrədə keçirilən ilk Qlobal Qaçqın Forumunda (QQF) iştirak etmək üçün İsveçrədə səfərdə olub. Forumun həmtəşkilatçıları qismində iştirak edən Türkiyə və Kosta-Rika Prezident, Pakistan, Efiopiya, Almaniya isə müvafiq olaraq Baş nazir, Baş nazirin müavini və Xarici İşlər naziri səviyyəsində təmsil olunublar. Forumun məqsədi dünyada artan qaçqın probleminə ən yüksək səviyyədə diqqəti yönəltmək, eləcə də bu problemin həllində dövlətlərin fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Bu fəaliyyətlərə qaçqınlara davamlı dəstəyin göstərilməsi, onların cəmiyyətə inteqrasiyası üçün qanunvericilikdə və siyasətdə dəyişikliklərin edilməsi və sair kimi əhəmiyyətli addımlar daxildir. DMX-nin rəisi Vüsal Hüseynov forumun plenar sessiyasında çıxış edərək qaçqınların sayının, eləcə də ehtiyaclarının artdığını, lakin görülən tədbirlərin mövcud vəziyyətlə ayaqlaşa bilmədiyini diqqətə çatdırıb. Azərbaycan Hökumətinin Qaçqınlar üzrə Qlobal Paktı dəstəklədiyini bildirən xidmət rəisi ölkəmizin də qaçqın axınları ilə bağlı acı təcrübəyə sahib olduğunu, Dağlıq Qarabağ regionu və ətraf ərazilərin Ermənistanın işğalı nəticəsində hökumətin bir milyondan çox qaçqın və məcburi köçkünü qəbul etdiyini vurğulayıb. Xidmət rəisi Ermənistanın davam edən işğalçılıq və aqressiya siyasəti nəticəsində yüz minlərlə insanın öz yurd-yuvalarına qayıda bilmədiyinə diqqət çəkib.

Forumda, eləcə də görüşlərdə Azərbaycan nümayəndə heyətinin tərkibində ölkəmizin Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin rəhbəri Vaqif Sadıqov və əməkdaşları, eləcə də Xarici İşlər Nazirliyinin Humanitar və sosial məsələlər idarəsinin rəisi Əlimirzamin Əsgərov iştirak ediblər".

***Vidadi ORDAHALLI***

**Erməni mətbuatı Rusiya Xarici İşlər naziri Sergey Lavrovun Avropa İttifaqının Şərq Tərəfdaşlığı layihəsi ilə bağlı səsləndirdiyi məqamlara diqqəti yönəldib. Qeyd edilir ki, S.Lavrov Rusiya mətbuatına açıqlamasında Aİ-nin Şərq Tərəfdaşlığı layihəsini Avropanın çoxəsrlik qonşularını Rusiyadan qoparmaq cəhdi adlandırıb.**



# Lavrovun "acı bəyanatı" - Azərbaycan Şərq Tərəfdaşlığı üzvü kimi seçimdə qoyulacaqmı...

## ***Elşən Manafov:*** *"Bu, Rusiya hakimiyyətindən Azərbaycana verilən bir mesaj kimi də qəbul oluna bilər"*

Eyni zamanda, Lavrov Avropa və Avrasiya ittifaqlarının əməkdaşlığını mümkün hesab edib. Bu məqsədlə ticarət və investisiya rejimlərinin uyğunlaşdırılmasını təklif edir. Onun sözlərinə görə, bu cür əməkdaşlıq qonşu ölkələri Rusiya və Aİ arasında seçim etmək kimi məsələdən xilas edəcək.

Aİ-nin Şərq Tərəfdaşlığı proqramına Ermənistan, Ukrayna, Gürcüstan, Moldova, Azərbaycan və Belarus daxildir. Rusiya Aİ-nin bənzərliyində özünün birliyini - 5 ölkənin daxil olduğu Avrasiya Birliyini yaratdı.

Belə məlum olur ki, Lavrov ölkələri seçim qarşısında qoyur. Maraqlıdır, sözügedən məsələ ilə bağlı Azərbaycan Şərq Tərəfdaşlığının üzvü kimi seçim qarsında qoyula bilərmi?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun fikrincə, Lavrovun açıqlamasında bununla bağlı bəzi elementlər var: "Bu, Rusiya hakimiyyətindən Azərbaycana verilən bir mesaj kimi də qəbul oluna bilər, nəinki Azərbaycana, Şərq Tərəfdaşlığında iştirak edən digər dövlətlərə. Çünki bu açıqlama ilə, əslində, Lavrov MDB məkanında ayrı-ayrı dövlətlərə, o cümlədən, Azərbaycana Aİ ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim etməyin məqsədəmüvafiq olduğunu bildirir. Lavrov həmin açıqlamada Aİ ilə AİI arasında əməkdaşlığın genişləndirilməsi məqamına da toxunub. Ancaq bizə yaxşı məlumdur ki, AİI, mahiyyət etibarilə, MDB məkanında Rusiyanın təsir dairəsini saxlamaq üçün yaradılıb. Sözügedən layihə də həyata keçirilir. Rusiya istəyər ki, Azərbaycan AİI-də təmsil olunsun. Ancaq Azərbaycan buna tələsmir. Azərbaycan hakimiyyəti müstəqil siyasət yeridir.

*"Çünki bu açıqlama ilə, əslində, Lavrov MDB məkanında ayrı-ayrı dövlətlərə, o cümlədən..."*

Digər tərəfdən, Avropa İttifaqının bəzi institutları Azərbaycana münasibətdə qərəzli mövqedən çıxış edirlər. Ona görə də Azərbaycan tələsmir. Nəzərə almaq lazımdır ki, Azərbaycan böyük həcmdə neftini Avropa İttifaqına satır. Ancaq Avropaya doğru inteqrasiya məsələsində tələsmək olmaz".

***Vidadi ORDAHALLI***

**Külli miqdarda dövlət vəsaitini mənisəməkdə ittiham olunan Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın əmlakına həbs qoyulub. Bu barədə Ermənistan Xüsusi İstintaq Xidmətinin sözçüsü Marina Ohancanyan bildirib: "Sarkisyanın əmlakına və cinayət işində adı keçən "Flash" kompaniyasının rəhbəri Barseq Beqlaryanın mülklərinə həbs qoyulması barədə qərar verilib".**



# Adını demokrat qoymuş Paşinyan özündən əvvəlki bir prezidenti də "məhv etdi"...

## ***Hatəm Cabbarlı:*** *"Belə davranış Ermənistandakı müxalifəti daha sıx birləşməyə vadar edə bilər"*

Bundan əvvəl Ermənistanın Xüsusi İstintaq Xidməti Sarkisyanı 1 milyon dollardan çox pul oğurlamaqda ittiham edib. Keçmiş dövlət başçısı özünə qarşı bu işi siyasi təqib hesab edib.

İstintaq materiallarına əsasən, qanun pozuntuları kəndlilərə əlverişli qiymətlərlə dizel yanacağının satılmasını nəzərdə tutan hökumət proqramı çərçivəsində törədilib. Belə ki, Sarkisyan öz tabeliyində olanlara dizel yanacağı tədarükçüsü kimi "Flash" kompaniyasını seçməyi tapşırıb. Halbuki, "Masxur" adlı digər şirkət daha uyğun qiymətlərlə öz xidmətlərini təklif edibmiş.

Məlum olduğu kimi, Sarkisyan hazırkı hakimiyyətə qarşı sərt müxalif mövqedə dayanan siyasətçidir. Onun yaxın silahdaşı olan, "Qarabağ klanı"nın digər aparıcı fiquru, eks-prezident Robert Köçəryan hazırda həbsdədir. Bununla sübut olunur ki, adını demokrat qoyan Paşinyan öz siyasi rəqiblərinə qarşı bütün mümkün inzibati rıçaqlardan istifadə edərək, təsir göstərir. Paşinyanın bu addımlarına başqa hansı adı vermək olar?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Nikol Paşinyan təxminən iki ildir hakimiyyət zirvəsində olsa da, daşları tam yerinə otuzdura bilməyib: "Bildiyiniz kimi, Paşinyan hakimiyyətə gələndən dərhal sonra Ermənistanın sabiq prezidenti Robert Köçəryanla bağlı cinayət işi qaldırdı və onu həbsə yolladı. Sonra məhkəmənin qərarı ilə Köçəryan iki dəfə həbsdən azad edildi və üçüncü dəfə yenidən həbsə atıldı. Bu inadkarlıq sübut edir ki, məsələdə hüquqdan çox siyasi istək nəzərə çarpır. Nikol Paşinyan təcrübəli siyasətçi olmadığı üçün, ölkənin daxili siyasətinə tam nəzarət etməyin yolunu real rəqiblərini neytrallaşdırmaqda görür. Köçəryanı bir şəkildə proseslərdən kənarlaşdıra bilib. Amma ona müxalif olan Respublikaçılar Partiyasının sədri, eks prezident Sarkisyanla bağlı bu addımı ata bilmir. Çünki bilir ki, iki eks-prezidenti həbs etdirməyin dünyada böyük rezonansı ola bilər. Ancaq ona təzyiq üçün müxtəlif üsullara əl atır. Tenderlə bağlı ortaya atılan versiya da buna sübutdur. Böyük ehtimalla, Sarkisyana qarşı qaldırılan iddianın hüquqi əsasları da var. Hətta onun hakimiyyətdə olduğu dönəmdə böyük maxinasiyalar etdiyi də şübhə doğurmur. Sarkisyana qarşı bu qədər təzyiq heç də şəffaflığın təmin olunmasına deyil, hakimiyyətin möhkəmlənməsinə xidmət edir. Görünür, bütün ictimai qınaqları da kənara qoyan Paşinyan Sarkisyanı da həbsə göndərməyə hazırlaşır".

Ekspertin sözlərinə görə, Sarkisyan dönəmində hakimiyyətlə yaxın olan oliqarxlara qarşı niyə cinayət işlərinin açılmaması da maraqlı görünür: "Bir daha sübut olunur ki, burada siyasi mübarizədən söhbət gedir. Amma özünü demokrat sayan Paşinyan bu mübarizəni çox primitiv və qəbul edilməyən qaydalarla aparır. Sarkisyan həbs ediləndən sonra onun komandasında təmsil olunan bir çox şəxsə qarşı da cinayət işlərinin qaldırılacağı qaçılmazdır. Bütün inqilablar nəticəsində belə hadisələr yaşanır. Hələlik Paşinyanın addımlarını hüquqi çərçivədə həyata keçirməyə çalışır. Belə davranış Ermənistandakı müxalifəti daha sıx birləşməyə vadar edə bilər. Həbslər bu şəkildə davam edərsə, bu, Ermənistanda demokratiyanın tam məhv olması anlamına gələcək. Təbii ki, Paşinyan hakimiyyətinin beynəlxalq imici üçün də təsirsiz ötüşməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# İŞİD təhdidi Ermənistanın siyasəti üzündən Cənubi Qafqazı da təhlükə altına alır

**Artıq 6 ildir ki, dünyada bir nömrəli terror təşkilatı adını alan İŞİD MDB məkanında yenidən təhdid mənbəyinə çevrilir. Bu xüsusda Rusiya Federasiyasının Milli Təhlükəsizlik Şurasının sədri Nikolay Patruşevin son açıqlamaları xüsusi diqqət çəkir. Onun sözlərindən belə bəlli olur ki, İŞİD Əfqanıstanda möhkəmlənməyə davam edir və Mərkəzi Asiyaya müdaxilə etmək üçün zəmin yaradır.**

Patruşev Tehranda Əfqanıstan üzrə milli təhlükəsizlik müşavirləri və Təhlükəsizlik Şuralarının katiblərinin iclasında çıxışı zamanı bildirib: "Bizim görüşümüzdən bir il sonra Əfqanıstanda təhlükəsizlik sahəsində vəziyyət hələ də qeyri-stabil olaraq qalmağa davam edir və daha da pisləşmək tendensiyası qalır. İŞİD terror təşkilatının möhkəmlənməsi daha çox narahatlıq doğurur".

O qeyd edib ki, Əfqanıstanda bu yaxınlarda 600-dən çox yaraqlının öldürülməsi və girov götürülməsi ilə nəticələnən əməliyyata baxmayaraq, müxtəlif məlumatlara əsasən, hələ də bu ölkədə 2,5-4 min aralığında yaraqlı qalmaqdadır:"İŞİD-çilər Əfqanıstanın şimalında möhkəmlənməyə çalışırlar. Onlar orada taliblərə qarşı mübarizə aparmaq və Tacikistan və Türkmənistan vasitəsilə Mərkəzi Asiya regionuna müdaxilə üçün zəmin yaradırlar. İŞİD-çilərin əsas səyləri öz mövqelərini Əfqanıstanın şimalında cəmləşdirməkdir. Tacikistan və Türkmənistan vasitəsilə Mərkəzi Asiya regionuna soxulmaq üçün plastdarm hazırlamaqdan ötrü ora iki mindən çox döyüşçü toplanıb. Döyüşçülərin əsas məqsədi özündə Mərkəzi Asiya ölkələri və Əfqanıstan ərazilərini birləşdirən "Böyük Xorasan" adlandırılan dövlətin yaradılmasıdır". Patruşev vurğulayıb ki, əldə olunan məlumatlara əsasən, İŞİD-çilərin prioritet məqsədləri kritik infrastruktur obyektləri, güc strukturları, diplomatik nümayəndəliklər, eləcə də xarici vətəndaşlar ola bilər: "Müxtəlif qiymətləndirmələrə görə, Əfqanıstanda olan İŞİD üzvlərinin sayı, yuxarıda qeyd olunduğu kimi, 4 min nəfərə çatır. Xüsusi xidmət orqanlarının məlumatlarına görə, bu terrorçu qruplaşmalar ölkənin şərq əyalətlərində yerləşib. Oradakı terrorçuların sayı 1500 nəfəri ötüb və onların sayı Pakistan vasitəsilə Suriya və İraqdan gələn cihadçıların hesabına artmağa davam edir".




Artıq İŞİD Əfqanıstanın bir neçə əyalətini ələ keçirib. Buna o, həm dövlətin hüquq-mühafizə orqanları, həm də "əl-Qaidə" ilə döyüşlərdə nail olub. Ekspertlər bu gedişatın çox təhlükəli nəticələr verə biləcəyini açıq deyirlər. İŞİD bir neçə dəfə bəyan edib ki, bütün regionda "sabitlik yaratmaq üçün" Əfqanıstandan meydan kimi istifadə edəcək. Təşkilat artıq bu vədlərinə əməl etməyə başlayıb.

Ekspertlər yuxarıda qeyd edilən tendensiyanın güclənməsində Rusiyanın Suriyada hərbi əməliyyatlara start verməsinin müəyyən rol oynadığını bildirir. Oradan sıxışdırılıb çıxarılan terrorçular başqa ərazilərdə möhkəmlənməyə çalışırlar. Bu sırada məhz Əfqanıstan daha həssas yer sayılır. Bu ölkənin əyalətlərini zəbt etməklə yanaşı, İŞİD ona qonşu olan dövlətlərə də nüfuz etmək strategiyasını həyata keçirir.

Hazırda terrorçular üçün əsas hədəf Mərkəzi Asiyadır. Çünki buradan minlərlə insan İŞİD-ə qoşulub. Əlavə olaraq, region dövlətləri arasında müxtəlif xarakterli potensial ixtilaf mənbələri mövcuddur. Qırğızıstanda İŞİD-ə yaxın "Hizbut əl-Təhrir" qruplaşmasının mövqeləri də möhkəmdir. Terrorçular üçün ən asan keçid isə Türkmənistan sərhədi hesab olunur. Artıq Türkmənistan Əfqanıstanla sərhədləri möhkəmləndirir. Amma türkmən tərəfinin təkbaşına İŞİD-ə qarşı çıxması çətin məsələ sayılır. İŞİD bu ölkəyə soxulsa, Xəzər sahillərinə çıxış əldə edə biləcək. Ekspertlər hesab edir ki, böyük dövlətlərin regiondakı maraqları uğrunda kəskin mübarizəyə girişməsi terrorçular üçün əlavə imkanlar yarada bilər. Çünki İŞİD adətən belə hallarda bu və ya digər tərəflərin maraqlarından istifadə edərək fəallığını artırır. Terror dalğasının Mərkəzi Asiyaya sıçraması özlüyündə böyük bir geosiyasi məkanda vəziyyəti gərginləşdirə, o cümlədən mühüm beynəlxalq layihələrin reallaşması məsələsini şübhə altına ala bilər. Məsələn, Qazaxıstandan keçən "Yeni İpək Yolu" layihəsini buna əyani misal kimi göstərmək olar.

Şübhəstz ki, Mərkəzi Asiyaya soxulan İŞİD üçün əsas hədəflərdən biri Qafqaz olacaq. Təşkilat ilk olaraq Şimali Qafqazda möhkəmlənməyə çalışacaq. Burada İŞİD-ə qoşulanların sayı heç də az deyil. Cənubi Qafqazda isə İŞİD-ə kömək edəcək əsas tərəf Ermənistan sayılır. Qeyd edək ki, bu terror təşkilatının Suriya və İraqda məğlub edildikdən sonra yenidən təşkilatlanaraq fəaliyyətlərini davam etdirmək üçün seçdiyi ölkələr sırasında məhz Ermənistan da var. Hələ bu ilin martında Rusiya Daxili İşlər Nazirliyinin Ekstremizmlə Mübarizə Baş İdarəsinin rəisi Oleq İlinıx bu xüsusda çox maraqlı bir açıqlama vermişdi. O bildirmişdi ki, İŞİD-in maraqlarının, Mərkəzi Asiya ilə yanaşı, Ermənistan ərazilərinə də transfer olunması müşahidə edilir. Xatırladaq ki, İŞİD-ə qədər ASALA, PKK və digərləri Ermənistanda özünə yer edə bilib. İndi İŞİD də Ermənistana üz tutmaq niyyətindədir. Digər tərəfdən, Ermənistanda İŞİD tərəfdarlarının peyda olması da heç kimə sirr deyil. Məsələn, elə Gümrüdəki 102-ci hərbi bazanın bir rus əsgərinin İŞİD tərəfdarı Arman Cancuğazyan tərəfindən bıçaqlanaraq öldürülməsi halı bunun real təsdiqidir.

Eləcə də, Rusiya Suriyada İŞİD-in məhv edilməsindən sonra terrorçuların Rusiyadan intiqam almağa çalışacaqlarını yaxşı bilir. Bu baxımdan rus hərbçiləri Ermənistanda İŞİD terrorçuları üçün olduqca asan hədəf ola bilər. İŞİD-ə sadiq qalan ermənilərin mövcudluğu terrorçuların müəyyənləşdirilməsi və məhv edilməsini daha da çətinləşdirir. Azərbaycanın işğal edilmiş ərazilərində də Ermənistan, digər terror təşkilatları kimi, İŞİD-ə münbit şərait yarada biləcək tərəflərdən sayılır. Bütün bunlar Ermənistan üzündən İŞİD təhdidinin Cənubi Qafqazı da hədələdiyini açıq göstərir.

***Nahid SALAYEV***

# Azərbaycan Ukraynada ermənilərin mənafeyinə hərtərəfli zərbə mövqeyinə çıxdı

**MDB məkanında erməni diasporunun kifayət qədər aktiv olduğu məkanlardan biri qismində Ukraynanın çıxş etməsi heç kimə sirr deyil. Xüsusən də Ukraynada Viktor Yanukoviçin devrilməsindən sonra ermənilərin aktivlyinin burada kifayət qədər artdığı aydın müşahidə olundu.**

O vaxtdan erməni diasporu Ukraynada çox aktivləşdi. Ermənilərin Ukrayna ictimai-siyasi həyatında aktivləşməsi burada azərbaycanlılar, onların diasporu üçün hətta müəyyən problemlər də yaratdı. Bu durumda erməni diasporu artıq Ukraynada Azərbaycan diasporunun əvvəlki kimi güclü olmaması, pərakəndə olması barədə təbliğatlara da aktiv şəkildə start verdi.

Məsələnin daha bir diqqətçəkən məqamı isə ermənilərin Ukraynada yüksək vəzifələrə də irəli çəkilməsi oldu. Xatırlatmaq yerinə düşərdi ki, Pyotr Poroşenko hökumətində iki nazir postu məhz ermənilərə verilmişdi. Bunlar daxili işlər naziri Arsen Avakov və infrastruktur naziri Vladimir Omelyan idi. Buna paralel olaraq, Maydan olayından sonra erməni biznesmenlərin Ukraynadakı aktivliyi də xüsusi hiss olunurdu. Araşdırmalar isə göstərirdi ki, Ukraynada ermənilərlə azərbaycanlıların sayı təxminən eynidir. Ancaq ermənilər Ukraynada siyasi baxımdan daha fəal idilər. Təbii ki, bütün bunlar Azərbaycanda da diqqətlə izlənirdi. Bakı GUAM çərçivəsində tərəfdaşı olan bir ölkədə ermənilərin daha güclü mövqe sahibi olub, bundan Azərbayacana qarşı istifadə edilməsinə razılıq verə bilməzdi. Ukrayna prezidenti Vladimir Zelenskinin Azərbaycana səfəri, əslində bu məsələdə artıq mühüm yeniliklərin olduğunu göstərdi. Azərbaycanın Ukrayna istiqamətində apardığı siyasət öz nəticələrini verdi.

Elə Ukraynada da aydın sezirlər ki, bu gün onlar üçün əsas tərəfdaş qismində Ermənistan yox, Azərbaycan çıxış edir. Bu mənada, Zelenskinin Azərbaycana səfəri tamamilə məntiqi xarakter daşıyırdı. Zelenski burada ilk növbədə nəzərə aldı ki, Azərbaycan onun ölkəsi üçün bir çox parametrlər baxımından xilaskardır. Məsələn, Azərbaycan investisiyaların yatırılması baxımından Ukrayna üçün vazkeçilməz ölkədir. Bu fonda Zelenski Azərbaycandan Ukraynaya investisiyaların artırılmasında maraqlı odlduqlarını açıqladı. Kiyev artıq Azərbaycan şirkətlərini Ukraynaya dəvət edib. Zelenski bildirir ki, Ukrayna investisiyaya açıq ölkədir və dost Azərbaycana qapılarını açmağa hazırdır. Bundan əlavə, Kiyev "Cənub Qaz Dəhlizi" layihəsinə maraq göstərir. Xatırladaq ki, energetika sahəsində SOCAR artıq uzun illərdir Ukraynada fəaliyyət göstərir. Şirkətin burada altmışdan çox yanacaqdoldurma məntəqəsi, dörd neft bazası var. Bundan sonra da SOCAR-ın Ukraynadakı fəaliyyətini genişləndirməsi üçün tərəflər arasında razılıq əldə olunub. İqtisadi-ticarət əlaqələrinin inkişafı məqsədilə 2018-ci ildə Kiyevdə Azərbaycan Ticarət Evi, dekabrın 17-də isə Bakıda Ukrayna Ticarət Evi açılıb. Cari ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrünə nisbətən 15,5 faiz artaraq 712 milyon dollardan çox olub. Müqayisə üçün bildirək ki, eyni dövrdə Ermənistan və Ukrayna arasında ticarət dövriyyəsi 92,59 milyon dollar təşkil edib. Bu da 2018-ci ilin uyğun dövrü ilə müqayisədə 10 faiz azdır. Belə hal göstərir ki, Ermənistan Ukrayna üçün elə ciddi iqtisadi tərəfdaş deyil.

Eyni zamanda, Ermənistan Ukraynanın ərazi bütövlüyünə qarşı çıxış edir. Bu ölkənin nümayəndəsi noyabrın 15-də BMT-nin Baş Assambleyasında Krımda və Sevastopol şəhərində vəziyyətə dair qətnamə layihəsinin yenilənməsinin əleyhinə səs verib. Ermənistan vətəndaşlarının Krım yarımadasına səfərini də rəsmi İrəvan dolayı yolla müsbət qarşılayır. Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Anna Nağdalyan Ermənistan vətəndaşlarının Krıma səfəri ilə bağlı suala cavabında bildirib ki, rəsmi İrəvan ölkə vətəndaşlarının sərbəst hərəkət etməsinə mane olmur. Nazirlik ölkə vətəndaşlarına bu kimi ərazilərə səfər etməməyi heç məsləhət də görməyib. Bu, Ermənistanın Ukraynaya qarşı təxribatı da sayıla bilər. Amma Azərbaycan tamam fərqli davranır. Azərbaycan bütün beynəlxalq platformalarda Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir. Eyni mövqe Ukrayna tərəfindən də sərgilənir. Bu xüsusda Zelenski Bakıda olarkən bildirib: "Biz burada Dağlıq Qarabağ münaqişəsi və Ukraynanın şərqində baş verən münaqişəni müzakirə etdik. Biz bir-birimizi ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bizim əməkdaşlığı özündə ehtiva edir. Bu bizim ölkələrimizin arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik".



Bütün bunlar fonunda Ukrayna prezidentinin Qafqaz ölkələrində ilk səfərini məhz Azərbaycana etməsi də təbii qarşılana bilər. Xatırladaq ki, Zelenskinin Bakı səfərindən öncə onun Cənubi Qafqazda niyə yalnız Azərbaycana səfər etdiyi haqda Ukrayna və Ermənistan mediasında müzakirələr açıldı. Rəsmi Kiyevin məlumatında qeyd olunurdu ki, prezident Tiflisdəki etirazlara görə Gürcüstana getmir, səfər Azərbaycana ediləcək. Erməni mediası səfər marşrutunda Ermənistanın adının belə çəkilməməsini qəzəblə qarşılamışdı. İndi Zelenskinin Bakı səfəri Ukrayanın Azərbaycanla əməkdaşlığını dinamik şəkildə inkişaf etdirməkdə maraqlı olduğunu üzə çıxarır. Təbii ki, bu hal Azərbaycanın da Ukranyada möhkəmlənməsi deməkdir. Belə vəziyyətdə erməni diasporunun Ukraynada mövqelərinin əhəmiyyətli dərəcədə zəifləməsi də qaçılmaz sayılır.

**Qarşıdakı dövrdə Ukraynada yaşayan Azərbaycan icmasının mövqelərinin əhəmiyyətli dərəcədə güclənməsini gözləmək olar. Bütün bunlar Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən məqamlar sırasında yer alır.**

*Ramil QULİYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan sülh prosesini pozmaqda davam edir, təcavüzkar ordu isə xaos və cinayət mənbəyi olaraq qalır...

**Azərbaycan ərazilərinin hələ də bir hissəsini işğal altında saxlayan Ermənistan üçün indi ən böyük qorxulardan biri Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həll oluna biləcəyidir. Məsələ bu müstəviyə keçərsə, Ermənistan kifayət qədər böyük problemlərlə üz-üzə qalacağını yaxşı bilir. Ən azı o cəhətdən ki, hərbi güc baxımından Ermənistan və Azərbaycan arasında fərq nisbəti artıq dəfələrlə ölçülür.**

Real vəziyyətdə Azərbaycan ordusunu istər şəxsi heyət, istərsə də hərbi texnika ilə təminat baxımından gücləndirdiyi halda, Ermənistanda bütün bunların tam əksi yaşanır. Bu ölkənin ordusu əvvəlki qaydada xaos və cinayət mənbəyi sayılır. Hətta qeyri-döyüş şəraitində ölən əsgərlərin valideynləri belə bildirirlər ki, Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq yüksək templə artır. Qeyd olunur ki, orduda problemlər dözülməz həddə çatıb. Bu problemlərdən də daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir. Təmas xəttində yoxsul insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar. Elə son bir həftədə erməni ordusunda baş verənlər də deyilənlərin tam reallığı əks etdirdiyini üzə çıxarır. Aydın olur ki, işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət yerlərini özbaşına tərk edənlərin sayı artır. İşğalçı orduda vəziyyət o qədər acınacaqlıdır ki, hətta zabitlər də hərbi hissədən qaçırlar. Belə ki, 4-cü dağ atıcı taborun iki bölük komandirinin hərbi hissədən qaçdığı məlum olub. Məlumata görə, kapitan Vahe Mamacanyan və onu həmkarı Stepan Avakyan hərbi hissəni özbaşına tərk edib. Hər iki zabit hərbi hissədə baş verən kütləvi dava zamanı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu Vahan Badalyana baş nahiyəsindən ağır xəsarət yetirməkdə ittiham olunur. Zabitlərin cinayət məsuliyyətinə cəlb olunacaqlarından qorxaraq hərbi hissədən qaçdıqları ehtimal edilir.

Bundan əlavə, işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəminində baş verən cinayətlərin də ardı-arası kəsilmir. Belə ki, bu yaxınlarda işğalçı ordunun bölmələrindən birində "dedovşina" zəminində daha bir cinayət hadisəsi üzə çıxıb.

Məlumata görə, hadisə ilə bağlı araşdırma aparan müstəntiq Ardak Voskanyan Eçmüədzindən hərbi xidmətə çağırılan Artuş Armeni adlı əsgəri mütəmadi olaraq döydüklərinə, fiziki və mənəvi təhqirlərə məruz qoyduqlarına görə 3 hərbi qulluqçunun cinayət məsuliyyətinə cəlb edilməsi barədə hərbi hissəyə məktub göndərib.

Hərbi hissə komandirinin əmrinə əsasən, erməni hərbiçiləri Vahram Arakelyan, Vazgen Budoyan və Samvel Arustamyan müstəntiqin sərəncamına göndərilib.

"Çiçəklənən Ermənistan" partiyasının deputatı Naira Zöhrabyan isə orduda intihar hallarının da artdığını yazır. Erməni vəkil Ara Qaraqyozyan da vəçziyyətin acınacaqlı olduğunu, hakimiyyətin bunlara sükutla yanaşdığını vurğulayır: "Həqiqətən, baş nazir Nikol Paşinyanın ordu ilə bağlı dediklərindən sonra mənim üçün belə bir təəssürat yaranır ki, işlər haqqında ona yanlış hesabat verilir". Ermənistan ordusunda baş verən işgəncələrə toxunarkən Ara Qaraqyozyan bildirib ki, . əvvəllər olduğu kimi, indi də işgəncə halları olur, lakin hakimlər işgəncə maddəsi ilə ittihamçı məhkəmə aktlarını həyata keçirməkdən yayınırlar:

"Məsələn, Armen Ağacanyanın ölüm işi ilə bağlı müstəntiqə müraciət etmişəm ki, yenidən ekspertiza keçirilsin, lakin sonuncu imtina edib. Bundan sonra baş prokurora müraciət etmişəm, ondan müstəntiqin sizə izah etdiyi üç sətirlik bir cavabı almışam. Lakin artıq səs-küy qalxanda mən Erebuni prokurorundan bir qərar alıram ki, sizin vəsatətiniz haqlıdır, təmin edilir və yenidən ekspertiza təyin olunmalıdır. Yəni bu səs-küy olmasaydı, həmin iş elə də bağlanacağdı. Yəni əvvəllər olduğu kimi, indi də Ermənistanda həm orduda, həm də polisdə işgəncələr davam etdirilir".

Erməni mediası isə məsələnin daha bir maraqlı tərəfinə diqqət çəkərək yazır ki, krminal ünsürlərin sayının orduda davamlı şəkildə artması da prosesə əsaslı surətdə təsir edir. Qeyd olunur ki, Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında alçaltma, fiziki və cinsi təzyiqlərə məruz qalma, özbaşınalıq nəticəsində baş verən cinayət hadisələrinin sayının durmadan artmasının bir səbəbi də məhz cinayətkarların orduya yol tapmasıdır. O da vurğulanır ki, xarici ölkələrdə cinayət əməli törətmiş yüzlərlə erməni məsuliyyətdən yayınmaq məqsədilə məhz ordu sıralarında gizlənir. Əvvəllər cinayət törətmiş əsgərlər, müqaviləli hərbi qulluqçular, hətta zabitlər barədə də dəfələrlə belə məlumatlar yayılıb. Bu günlərdə daha bir belə fakt məlum olub. Belə ki, 2019-cu ilin yayında Ermənistandan hərbi xidmətə çağırılan və hazırda işğalçı ordunun 6-cı dağ atıcı alayında xidmət edən Conin Yeremyan Rusiya Federasiyasında cinayət törədib. Məsuliyyətdən yayınmaq məqsədilə o, Rusiyadan qaçaraq Ermənistan ordusuna "pənah" gətirib. Belə şəxslərin orduda istənilən an cinayət törədə biləcək potensial ünsürlər olması erməni mediasında açıq etiraf olunur. "Hüquq və Azadlıq Mərkəzi" ictimai təşkilatının rəhbəri, hüquq müdafiəçisi Vardan Arutyunyan hesab edir ki, bu kimi insanlar orduya buraxılmamalıdır. Arutyunyan qeyd edir ki, Cinayət Məcəlləsində dəyişiklik edilməsi belə bu qəbildən olan ağır problemləri həll etmir. Onun sözlərinə görə, məsələnin həllinə tərbiyəvi üsullardan istifadə etməklə nail olmaq olar, ancaq bu, inqilabi yanaşma tələb edir:

"Əminəm ki, 100% olmasa da, intiharların böyük əksəriyyəti qanunsuz qarşılıqlı münasibətlər səbəbindən baş verir. Bunun əsas və bir nömrəli səbəbkarı yuxarı və aşağı, xüsusilə də aşağı komandanlıq heyətidir. Bunu yumşaltmaq olar, ancaq tam ləğv etmək mümkün deyil. Çünki bizim ordumuz çar dövründən başlayaraq mövcud olan rus ordusunun göstəriciləri və anlayışları üzərində qurulub". Arutyunyan qeyd edib ki, ən vacib məsələ çağırışa cəlb edilən gənclərin yaş həddinin 21 yaşa qaldırılmasıdır: "Ona görə ki, hələ formalaşmamış 18 yaşlı gəncin əlinə silah və atəş açma imkanı verildikdə, bu yaşda olan gənclər arasında müxtəlif münaqişələr və mübahisələr meydana gəlir, ancaq 21-22 yaşlı gənclər arasında bu problemlər yaranmır. Yaxud bu gənclər problemi həll etmək üçün atəş açma yolundan fərqli yolları axtarıb tapırlar. Məsələn, ABŞ-ın 21 yaşlı gənclərlə komplektləşdirilən ordusu var. İnsanlar tarix və yol keçiblər, öz gənclərinin dəyərini dərk edirlər. Rus ordusunda isə insanın heç vaxt dəyəri olmayıb. Eyni şeyi Orta Asiya və Ukrayna ordusu üçün də demək olar. İndi Ukraynada NATO standartlarına keçid edirlər. Düşünürəm ki, eyni qaydada yaş həddi də artırılacaq. Bu cür inqilabi qanun erməni parlamentində heç vaxt irəli sürülməyib. Bizim ordumuz fəqli standartlar üzərində qurulduğuna görə yaxın gələcəkdə bu ola da bilməz". Erməni vəkil Norayr Norikyan da Ermənistan ordusunda vəziyyətin yaxşı olmadığını bildirir. O, orduda intihar halları və hökm sürən neqativ məqamların səbəbləri barədə danışarkən bildirib ki, ən vacib məsələ Ermənistan ordusunda cinayət davranışlarının mövcudluğudur:"Daha qlobal və kompleks həll zəruridir. Ən vacib problem silahlı qüvvələrdə cinayət davranışlarının mövcudluğu və qeyri-formal institutların varlığıdır. Bu institutların tətbiqi nəticəsində silahlı qüvvələrdə faciəvi hallarımız olur". Erməni vəkil bildirib ki, orduya gəlir mənbəyi kimi baxan generallar da problemlərin həllinə imkan vermir. Bunu "e-Hayq" şirkətinin rəhbəri Vahaqn Poqosyan da təsdiq edir. O bildirib ki, erməni əsgəri sıçovul kimi səngərdə oturub, azərbaycanlıların nə zaman fəallıq nümayiş etdirəcəyini gözləməməlidir, bunun üçün müvafiq texnika var: "İnnovasiyaların tətbiqi məsələsinin həllində irəliləyiş yoxdur. Ona görə ki, bu, biznes maraqları çərçivəsindədir. Həmin hərbi qulluqçular üçün nəzərdə tutulmuş yanacaqdan naharadək, kiminsə maraqları ilə bağlıdır. Hansı tərəfə addım atsan da kiminsə maraqları ilə toqquşursan və narazılıq yaranır". Poqosyanın sözlərinə görə, innovasiya təşəbbüsləri məcburi qaydada öz biznes maraqları olan generalların müqavimətinə rast gəlir. Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının informasiya şöbəsinin rəisi polkovnik Samvel Asatryan Poqosyanın bu xüsusda faktları Müdafiə Nazirliyi və Silahlı Qüvvələrin Baş Qərargahının nümayəndələrinə təqdim etdiyini təsdiqləyib. Amma generallara qarşı hansısa tədbir görülməyib. Bütün bunlar erməni ordusunda hansı vəziyyətin mövcud oldduğunu əyani surətdə təsdiq edir.

Görünən həm də budur ki, yaxın dövr ərzində erməni ordusunda acınacaqlı vəziyyət daha da pisləşməyə doğru gedəcək. Orduda cinayət hallarını sayının durmadan artması, qeyri-döyüş şəraitində itkilər, yüksəkçinli hərbçilərin orduya sadəcə gəlir mənəbyi kimi yanaşması və digər belə hallar da qeyd olunanların təsdiqidir. Təbii ki, bu şəraitdə ermənilərin Azərbaycan ordusu qarşısında duruş gətirməsi sadəcə mümkünsüzdür. Elə bu səbəbdən Qarabağ münaqişəsinin hərbi həlli gündəmə gəldiyi halda erməni tərəfi hansı böyük zərbələri alacağını yaxşı bilir. Azərbaycanın isə Ermənistana verdiyi vaxt limiti bitdiyindən, İrəvanın Qarabağ məsələsində artıq əməli addımlar atmasının vaxtı çoxdan çatıb. Əks təqdirdə düşməni ordumuzun sərt zərbələri gözləyir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Laçında quldur Andranikə heykəl?

## Əli Mahmud: "Andranik kimi hərbi caniyə, qatilə, daşnaka Laçında heykəl qoyulmasının qarşısını almalıyıq"

**Ermənilərin daşnaklara heykəl qoyması artıq bir ənənəyə çevrilib və çox təəssüflər olsun ki, onların bu addımına beynəlxalq qurumlar göz yumurlar. Ermənilər işğal altında saxladıqları Azərbaycan torpaqlarında da bu əməllərini davam etdirirlər. Böyük türk düşməni olan Andranikə Azərbaycan torpaqlarında heykəl qoyulmasının planlaşdırılması da qəbulolunmazdır.**

Düşmən mətbuatı yazır ki, ermənilər Laçın rayonunda tayqulaq Andranikə heykəl qoymağı planlaşdırırlar. Ermənistan mətbuatına istinadən BDU-nun Tarix fakültəsinin Erməni araşdırmaları elmi-tədqiqat və tədris mərkəzinin böyük elmi işçisi, tanınmış ermənişünas İsmayıl Tanrıverdi qeyd edir ki, ermənilər Qarabağda qulağı kəsik Andranikin adının əbədiləşdirilməsi üçün Laçın rayonunun girişində, yüksək bir yerdə onun 3 metrlik heykəlini qoymaq qərarına gəliblər. "Ermənilər iddia edirlər ki, 1918-ci il noyabrın sonlarında bu yerlərdə Andranik öz quldur dəstəsilə birləşmiş türk-azərbaycanlı və kürd ordusuna qarşı mübarizə apararaq Laçının ətraf kəndlərinin boşaldılmasında çox böyük fəaliyyət göstərib və Qarabağa gedən yolları düşmənlərdən təmizləyib" -deyə İ.Tanrıverdi erməni mediasının yazdığını vurğulayır.

Erməni mediasında Andranikin heykəli ilə bağlı yayılan fotolar da diqqət çəkir. Təqdim edilən 1-ci şəkildə guya ki, Andranik öz dəstəsilə bu qayaların altında çadır qurub gecələyib. 2-ci şəkildə heykəl demək olar ki, hazırdır. 3-cü şəkildə isə qarşıda Laçın, əks tərəfdə isə "Berd" kəndi təsvir edilib.

Dünyanın ən qəddar quldurlarından biri olan xəyanətkar Andranik Ozanyan daşnakların türklərə və qeyri-türklərə qarşı həyata keçirdiyi qırğınlarda, soyqırımlarda xüsusi ilhamverici qüvvə rolunu oynayıb. Onun başçılıq etdiyi daşnak dəstələri Qarabağda, Zəngəzurda, Laçında, eləcə də digər yerlərdə kütləvi qırğınlar həyata keçiriblər.

1918-ci ildə əsasən Qarabağ və Zəngəzurda azərbaycanlıların yaşadıqları kəndlərin dağıdılmasında və əhalisinin qırğınında Andranikin başçılıq etdiyi dəstə böyük rol oynayıb. Osmanlı imperiyasında anadan olan Andranikin Azərbaycanla heç bir əlaqəsi olmasa da, o özü işğalçı daşnak xislətinə sadiq qalaraq Azərbaycan torpaqlarında tarixdə analoqu olmayan qırğınlar, qətliamlar törədib. Tarixi mənbələrdə qeyd edilir ki, bir müddət "Hnçak" partiyasının, sonra isə "Daşnaksütyun"un üzvü olan Andranik 1880-ci illərdə Osmanlı dövlətinə xəyanət etdiyi üçün cəza kimi onun qulağını kəsirlər, bundan sonra ona xalq arasında "birqulaqlı Andranik" deyirlər. Andranik Türkiyədə fəaliyyət göstərən erməni silahlı dəstələri üçün silah qaçaqmalçılığı ilə məşğul olur. 1890-cı illərdə türk ordusuna qarşı döyüşlərdə iştirak edir. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan sonra Andranik Türkiyədən qaçır. Bir müddət Qafqazda olur, sonra isə Avropaya yollanır. 1907-ci ildə Bolqarıstanda keçirilən "Daşnaksütyun"un IV qurultayında iştirak edir.

Onu da qeyd edək ki, 1912-ci ildə müharibə başlayanda Qaregin Njde ilə birlikdə ermənilərdən ibarət könüllü dəstə yaradır, Balkanlarda erməni silahlı dəstələri yerli türk əhalisinə qarşı kütləvi qırğınlar törədirdilər. Bu döyüşlərdə iştrakına görə Andranik Ozanyan Bolqarıstanın ali dövlət təltifi olan, "İgidliyə görə qızıl xaç" ordeni ilə təltif olunur. Bundan əlavə, onu digər mükafatlarla da təltif edirlər, həmçinin, Andranik Bolqarıstan vətəndaşlığına qəbul olunur.

1914-cü ilin avqustunda Andranik Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə görüşür və rus ordusuna öz xidmətlərini təklif edir. Rus ordusu Andranikə erməni hərbi dəstələrini formalaşdırmağı tapşırır. Türk ordusuna qarşı hərbi əməliyyatlarda iştrakına görə rus və fransız ordusunun komandanlığı tərəfindən bir sıra orden və medallarla təltif edilir.

1916-cı ildə çar ordusunun komandanlığı ilə yaranan problemlərə görə cəbhəni tərk edir. Andranikin Türkiyənin şərqində olduğu bütün müddət ərzində onun başçılıq etdiyi silahlı erməni dəstələri buradakı türk və kürd əhalisinin kütləvi qətlləri ilə məşğul olurlar.

1917-ci il fevral inqilabından sonra Qafqazdakı rus ordusu tədricən dağılmağa başlayır. Yaranmış vəziyyətdən istifadə edən ermənilər öz silahlı dəstələrini gücləndirir, çar ordusundan qalmış silah və sursatı mənimsəyirdilər. Bu zaman başsız qalmış Rusiyanın Qafqaz ordusunun komandanlığı Andranikə general-mayor rütbəsi verir, lakin qeyd etmək lazımdır ki, yaranmış vəziyyətdə komandanlığın verdiyi rütbələr daha çox rəmzi əhəmiyyət kəsb edirdi. Andranik 1918-ci ildə Ermənistanla Türkiyə arasında imzalanmış müqaviləni tanımaqdan imtina edir. Bu dəfə Andranik bolşeviklərlə əməkdaşlıq etməyə başlayır, o, 1918-ci ilin iyulunda Stepan Şaumyana teleqram göndərir, teleqramda Andranik bildirir ki, "Naxçıvan qəzası özünü Sovet Rusiyasının bir hissəsi sayır və o özü dəstəsilə birlikdə bolşeviklərin tabeliyinə keçməyə hazırdır". Lakin iyulun 19-u türk ordusu Naxçıvanı və Culfanı tutur, Andranik Zəngəzura qaçır.



Zəngəzurda Andranikin rəhbərlik etdiyi silahlı dəstələr Azərbaycan kəndlərini dağıtmaqla məşğul idilər. Bu kəndlərin əhalisi kütləvi şəkildə öldürülür, diri-diri yandırılır, qılıncdan keçirilirdi.

Andranikin quldurlarının vəhşiliyi barədə erməni tarixçisi A.Lalayan bunları yazır: "Andranikin başçılıq etdiyi daşnak dəstələri türk kəndlilərində uşaqların, qadınların və qocaların qətli zamanı "böyük sücaət" göstərirdilər. Daşnak dəstələri tərəfindən tutulmuş müsəlman kəndlərində sağ adamlar qalmırdı, onlar insan qalıqları ilə dolu xarabalığa çevrilirdi".

Andranikin silahlı dəstələri 1918-ci ildə Naxçıvan qəzasının Yaycı kəndinə hücum edərək 2500 nəfəri qətlə yetirir, meyitlərini isə Araz çayına atır. 1918-ci ilin sonlarında Andranikin dəstələri Qarabağda bir çox Azərbaycan kəndlərinə hücum edərək kütləvi qətllər törədir, kəndləri talan edirlər. Rəsmi məlumatlara görə, bu dövrdə 115 Azərbaycan kəndi dağıdılmış, 10 mindən artıq əhalisi qətlə yetirilmiş, əmlakları talan edilib.

Türkiyə hökumətinin hərbi cinayətkar kimi beynəlxalq axtarışa verdiyi Andranik ABŞ-da Kaliforniya ştatının Fresno şəhərində vəfat edib.

Bu gün ermənilərin "qəhrəmanlaşdırdığı" Andranikə Laçında heykəl qoyulmasını planlaşdırması böyük cinayətdir. Əli milyonlarla azərbaycanlının qanına batan, Laçın kəndlərini talayan, əhalisini qətlə yetirən Andarnikə burada heykəl qoyulması bütün beynəlxalq qurumları narahat etməlidir. Çünki Andranik həm bir daşnak olub, həm də hərbi cinayətkar kimi yüzlərlə insanın qətlinə fərman verib.

Məlum olduğu kimi, ermənilər Andranikə İrəvanda heykəl qoymaqla kifayətlənməyib, Rusiyada da ona heykəllər ucaltmağa cəhd ediblər. 28 may 2011-ci ildə Rusiyanın Soçi şəhərinin yaxınlığındakı Volkonka qəsəbəsində Andranikin abidəsi açılmalı olsa da, tədbirə Krasnodar diyarından 5-6 minə qədər erməninin gələcəyi gözlənilsə də, yerli hakimiyyət orqanları tədbirə etiraz ediblər. Yerli hakimiyyət orqanları ermənilərdən tələb ediblər ki, abidə sökülsün, əks halda, yerli hakimiyyət onu dağıtmalı olacaq.

Məlum olduğu kimi, tarixi mənbələrdə bildirilir ki, Andranikin qulağının biri Osmanlı ordusuna xəyanət etdiyi üçün deyil, Laçında törətdiyi qırğınlara görə Sultan bəy Sultanov tərəfindən kəsilib. Mənbələrdə qeyd edilir ki, 1918-ci ilin əvvəllərində ermənilər bu dəfə təkcə Qarabağda deyil, bütün Azərbaycanda soyqırıma başlayırlar. Bu soyqırımın belə geniş ərazidə başlamasına səbəbkar erməni quldurları Andranik və Stepan Şaumyan olur. Andranik Qarabağda, Şaumyan isə Bakıda fəaliyyətə başlayır. O Andranik ki, rus və fransız hökumətləri 1914-cü ildə türk-müsəlman əhalisinə qarşı hərbi əməliyyatlarda amansız iştirakına görə onu çoxsaylı orden və medalla təltif etmiş, 1918-ci ildə isə general-mayor rütbəsi ilə qiymətləndirmişdi.

Lakin 1918-ci ildə igid oğlumuz Sultan bəy Andranikə ömürlük utanc gətirən bir "mükafat" verir. O "mükafat" Andranikə "tayqulaq" adını bəxş edir.

Tədqiqatlara görə, 1918-ci ildə erməni quldur dəstəsinin rəhbəri Andranik Dağlıq Qarabağa keçmək üçün Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova icazə məktubu göndərir. Xosrov bəy qardaşı Sultan bəylə məsləhətləşir. Sultan bəy qardaşından icazə verməsini xahiş edir. İcazə alan Andranik tez bir zamanda 30 minlik ordu ilə müsəlmanlara qarşı hücuma kecir. Hərbi təhsilə yiyələnmiş Sultan bəyin uzaqgörənliyi nəticəsində Andranikin ordusu Zabux dərəsində mühasirəyə düşür və düşmən darmadağın edilir. Deyilənlərə görə, cəmi üç nəfər erməni qaçıb canını qurtara bilir, Andranik isə ələ keçir. Sultan bəyin əl-ayağına düşərək aman diləyir. Sultan bəy gülərək: "Bu qədərmi qorxursan, qorxma, səni öldürməyəcəm, sənin qulağını kəsəcəm ki, qulağında qalsın, bir də başqasının malına-mülkünə göz dikməyəsən" - deyərək onun qulağını kəsir və əlinə verir.

Bu gün Sultan bəyin yurdunda daşnak Andranikə heykəl qoyulması ilə bağlı plandan təəssüfləndiyini deyən "Qarabağa aparan yol" qəzetinin baş redaktoru Əli Mahmud bizimlə söhbətində qeyd etdi ki, bütün gücümüzü birləşdirib Laçında Andranikə heykəl qoyulmasının qarşısını almalıyıq.

**"Laçında daşnak, hərbi cinayətkar Andranikə heykəl qoyulması qəbuledilməzdir və bu, böyük tarixi cinayətdir. O, Laçında böyük qırğınlar törədən, evləri, yurdları talayan bir canidir. Təkcə Laçında deyil, bütövlükdə, Zəngəzurda, Naxçıvanda böyük qırğınlar edib. Andranik kimi hərbi caniyə, qatilə, daşnaka Laçında heykəl qoyulmasının qarşısını almalıyıq. Sultan bəyin yurdunda onun heykəlinin qoyulması yolverilməzdir. Beynəlxalq qurumlar bu məsələyə nəhayət ki, reaksiya verməli, ermənilərdən özbaşınalıqlarını dayandırmalarını tələb etməlidir. Böyük türk düşməni Andranikə heykəl qoyulması bütün dünyanı narahat etməlidir" - deyə Ə.Mahmud qeyd etdi.**

*İradə SARIYEVA*

# Ermənilərin Qarabağda dağıtdıqları mədəniyyət abidələri barədə beynəlxalq təşkilatlardan bircə reaksiya varmı...

***Faiq İsmayılov:** "Bu faktların beynəlxalq təşkilatlarda səsləndirilməsinə, ermənilərə qarşı cəza tədbirləri görülməsinə nail olmalıyıq"*

**Azərbaycan dövlətinin üzv olduğu siyasi və humanitar beynəlxalq qurumların sayı çox olsa da, çox təəssüf ki, bir sıra məsələlərə, xüsusən də Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı torpaqlarımızda ermənilərin törətdiyi vandalizm aktlarına göz yumurlar.**

Ölkəmiz bu təşkilatlar qarşısında götürdüyü öhdəlikləri yüksək səviyyədə yerinə yetirsə də, amma bu təşkilatlar öz üzərilərinə düşən öhdəlikləri yadlarına salmaq istəmirlər.

Müəyyən istisnaları nəzərə almasaq, indiyə qədər UNESCO, İSESCO, eləcə də digər humanitar təşkilatlar ermənilərin həm Ermənistan ərazisində, həm də Dağlıq Qarabağ və ətraf rayonlarda Azərbaycan abidələrinə qarşı törətdikləri vandalizm hərəkətlərini pisləyən hər hansı bir bəyanatla çıxış etməyiblər. Ola bilsin, hansısa tədbir, rəsmi görüşlər çərçivəsində Azərbaycanın üzv olduğu beynəlxalq qurumlar erməni təcavüzünü pisləsin, amma, bütövlükdə, heç bir təşkilat ermənilər tərəfindən dağıdılan, quruluşu dəyişdirilən, saxtalaşdırılan, erməniləşdirilən Azərbaycan abidələrinin taleyi barədə narahatlığını ifadə etməyib. Halbuki, beynəlxalq təşkilatlar bu ciddi faktlarla bağlı bəyanatlar verə, ermənilərdən Azərbaycanın işğal olunmuş ərazisindəki abidələrə qarşı vandalizm hərəkətlərini dayandırmağı tələb edə bilər. Yəni bu həm müvafiq beynəlxalq konvensiyaların tələbindən irəli gələn məsələdir, həm də həmin qurumların öz öhdəliklərinə tam uyğundur. Ermənilər tərəfindən işğalda saxlanan Dağlıq Qarabağ, eləcə də ətraf rayonlarda kifayət qədər məscid, türbə, islam dünyası üçün əhəmiyyətli olan abidə erməni vandalizminə məruz qalaraq dağıdılıb. Lakin hələ də beynəlxalq qurumlar bununla bağlı hər hansı bir fikir bildirməyiblər. Dünyanın müharibə getmiş bütün bölgələrində abidələr toxunulmaz olaraq qalır və onlar öz mövcudluğunu qoruyub saxlayırlar. İşğal edilən torpaqalarda olan abidələrə başqa işğalçılar toxunmasa da, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında abidələrə divan tutublar.

Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyinin rəhbəri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər tərəfindən vandalcasına dağıdılan Azərbaycan abidələrinin taleyinə beynəlxalq qurumlar biganəlik sərgiləməkdə davam edirlər. "Bizim abidələrimizin beynəlxalq təşkilatlar tərəfindən qeydiyyata alınması müsbət haldır. Amma bizim işğal altındakı torpaqlarımızda da saysız abidəmiz var, iş burasındadır ki, beynəlxalq təşkilatlar nəinki o abidələri müdafiə edir, hətta heç bizim torpaqları işğal altında olan ərazi kimi qəbul etmirlər. Ən böyük bəlamız budur ki, həmin beynəlxalq qurumlar işğal altındakı Azərbaycan torpaqlarında erməni vandalizminə məruz qalan abidələrimizlə bağlı hər hansı bir qərar, qətnamə qəbul etmirlər, halbuki bunu edə bilərlər. Əslində, onlar qətnamələr çıxarmalı, erməni vandalizmini pisləyən qərarlar verməli, Ermənistan qarşısına konkret tələblər qoymalıdırlar. Amma onlar ermənilər tərəfindən dağıdılan, forması, quruluşu dəyişdirilən abidələrimizlə bağlı heç bir iş görmürlər. Ümumiyyətlə, bu istiqamətdə heç bir addım atılmır. Deyim ki, bizim aidiyyəti ictimai qurumların çoxunun həmin beynəlxalq təşkilatlarla əlaqəsi yoxdur. Bunun da səbəbi odur ki, bəzi beynəlxalq təşkilatların həmin qurumlarla əlaqə yaratmağa, onlarla əməkdaşlıq etməyə maliyyə resursları yoxdur, bəzi qurumların isə Azərbaycanın işğal olunmuş ərazilərindəki abidələri haqqında məlumatı yetərincə deyil. Şəxsən bizim təşkilatın maliyyə imkanları zəif olduğu üçün xaricə çıxa bilmir, halbuki, bizim vəsaitimiz olsa, çox iş görə bilərik".

F.İsmayılovun sözlərinə görə, Dağlıq Qarabağda saysız islam abidəsi var ki, onlar da erməni vandalizminin qurbanı olublar. O vurğuladı ki, ermənilər tərəfindən işğal edilən Azərbaycan torpaqlarında 72 məscid olub, lakin o məscidlərin, demək olar ki, hamısı dağıdılıb, cəmi iki-üç məscid saxlanıb, o da fars mədəniyyətinin nümunəsi kimi təqdim edilir.

**"Bu da ona xidmət edir ki, guya ermənilər müsəlman dini abidələrini qoruyub saxlayırlar. Amma, faktiki olaraq, erməni vandalizmi nəticəsində 72 məscidin, demək olar ki, hamısı dağıdılıbsa, onlarla qəbirüstü abidə, türbə yerlə yeksan edilibsə, buna mütləq beynəlxalq qurumlar, o cümlədən, İSESCO münasibət bildirməlidir. Bu faktların beynəlxalq təşkilatlarda səsləndirilməsinə, ermənilərə qarşı cəza tədbirləri görülməsinə nail olmalıyıq. Mən erməni vandalizminə məruz qalan Azərbaycan abidələrinin siyahısını həm Xarici İşlər Nazirliyi, həm Mədəniyyət Nazirliyi, həm də Dini İşlər üzrə Dövlət Komitəsinə təqdim etmişəm ki, onlar bu siyahını beynəlxalq qurumlara göndərsinlər. Amma, görünür, nədənsə bu dövlət qurumları həmin faktları beynəlxalq qurumlara təqdim etməyiblər" - deyə F.İsmayılov vurğuladı.**



*"...bu dövlət qurumları həmin faktları beynəlxalq qurumlara təqdim etməyiblər"*

***İradə SARIYEVA***

# İstanbulu Avropadan tam ayıran böyük gəmi kanalı...

**Türkiyə tərəfi Bosfor boğazına alternativ olacaq "İstanbul" kanalının tikintisi üzərində iş aparır. Bu barədə məlumatı Türkiyənin Prezidenti Ərdoğan verib. Prezident deyib ki, yeni layihənin Türkiyənin iqtisadiyyatına və inkişafına böyük təsiri olacaq:**

"Təsəvvür edin ki, hazırda Türkiyə boğazlardan keçən gəmilərə görə gəlir əldə etmir. Ancaq yeni kanal tikiləndən sonra vəziyyət tamamilə fərqli olacaq".

Statistik məlumatlarda bildirilir ki, 2019-cu ilin üçüncü kvartalına görə, Dardanel boğazından 32 min 414 gəmi keçib ki, onlardan da 10 min 98-i yük gəmilərinin payına düşür. Eynilə Bosfor boğazından da bu sayda gəmilərin keçdiyi bildirilir. Xatırladaq ki, kanalın uzunluğu 45 kilometr, eni isə 600 metr olacaq. Dərinliyi 25 metr olacaq kanalın buraxma gücü sutka ərzində 150-160 gəmi həcmindədir. Bu layihə, həmçinin, Bosfor boğazında yaranan sıxlığı da aradan qaldıracaq. Qara dənizlə Mərmərə dənizini birləşdirəcək layihə həm də İstanbulun Avropa hissəsini tam ayırmaqla bir adaya çevirəcək. Yeni kanalın sahilində yeni yaşayış komplekslərinin tikintisi planlaşdırılır. Hətta yeni limanın da tikintisi gözlənir. Kanalın tikintisi 5 il çəkəcək, minimal istismar müddəti isə 100 il olacaq.

Qeyd edək ki, bu layihə Türkiyənin tarixində ən böyük proje sayılır. Bununla Türkiyə həddən-ziyadə yüklənmiş Bosfor boğazına alternativ olaraq, Qara dənizi və Mərmərə dənizini süni su yolu ilə birləşdirmək niyyətindədir. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan vəd edib ki, bu əsrin ən iri layihələrindən biri olacaq İstanbul kanalı Panama və Süveyş kanallarını kölgədə qoyacaq.

İstanbulun Avropa hissəsindən çəkiləcək kanal boyunca avtomobillərin hərəkəti üçün körpülər, kanalın sahilində yaşayış binaları, işgüzar zonalar salınacaq, habelə İstanbul üçün sayca üçüncü olan yeni hava limanı inşa ediləcək.

Türkiyədəki son seçkilərdən sonra start götürən bu layihənin eyni zamanda ekoloji fəlakətin qarşısını alacağı da bildirilir. Hazırda bu dar boğazla ildə 140 milyon tonadək neft daşınır.

Bu yaxınlarda İstanbulun hər iki tərəfində 2 yeni qəsəbənin tikintisi planı açıqlanıb. Bundan əlavə, yayda Bosfor körfəzi üzərindən üçüncü körpünün inşası üçün tender keçiriləcək. Yeri gəlmişkən, Türkiyə-Yaponiya konsorsiumu boğazın dibi ilə dəmir yol tunelinin inşasına başlayıb.




Qeyd edək ki, hazırda Bosfor boğazı qələbəliyinə görə dünyada dördüncü su magistralı sayılır. Lakin sahili girintili-çıxıntılı, axını aldadıcı olduğu üçün, burada düzgün istiqamət götürmək çətindir. Türkiyə çoxdan xəbərdarlıq edir ki, neftdaşıyan tankerlərin ölçülərinin artması ilə əlaqədar dəniz daşımalarının artması gec partlayan bombadır. Odur ki, bu ölkə neft kəmərlərinin öz ərazisindən çəkilməsinə üstünlük verir.

Sahillərində dəbdəbəli villalar, restoranlar ucaldılmış, turistlər üçün cəlbedici yerlərlə zəngin Bosfor boğazında 1979 və 1994-cü illərdə tankerlərin qəzaya uğraması nəticəsində müvafiq olaraq 41 və 28 adam həlak olub. Bütün bu faktlar sübut edir ki, yeni kanalın tikintisi həm də böyük zərurətdən irəli gəlib. Bu meqalayihənin Türkiyənin iqtisadiyyatına, ekologiyasına, turizm potensialına, hətta təhlükəsizliyinə də böyük faydası olacaq.

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyan sabiq nazirini Sarkisyanın üzünə durdurdu



**Külli miqdarda dövlət vəsaitini mənisəmədə ittiham olunan Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın əmlakına həbs qoyulub. Sputnik Ermənistan xəbər verir ki, bu barədə Ermənistan Xüsusi İstintaq Xidmətinin sözçüsü Marina Ohancanyan bildirib.**

"Sarkisyanın əmlakına və cinayət işində adı keçən "Flash" kompaniyasının rəhbəri Barseq Beqlaryanın mülklərinə həbs qoyulması barədə qərar verilib", - Ohancanyan bildirib.

Qeyd edək ki, ötən gün erməni KİV-nin yaydığı məlumatda qeyd olunub ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Xüsusi İstintaq Xidmətində (XİX) sabiq kənd təsərrüfatı naziri Serqo Karapetyanla üzləşmə zamanı əsəbiləşib və təhqiramiz ifadələrdən istifadə edib.

Bəzi məlumatlara görə, daha əvvəl sabiq nazir Sarkisyana qarşı ifadə verib ki, bu da sabiq prezidentin "dizel işi" üzrə günahlandırılan şəxs olaraq istintaqa cəld olunması üçün əsas yaradıb.

"Qraparak" nəşri yazır ki, üzləşmə zamanı sabiq nazir Sarkisyanın gözlərinə baxa bilməyib. Belə ki, söhbət Sarkisyanın dövlət tərəfindən fermerlərə dizel yanacağı alınan zaman "Flash" şirkətinə üstünlük verilməsinə dair şəxsi tapşırığından gedir. Sarkisyan Karapetyandan soruşub: "Serqo, sən belə bir şey demisən?" Buna cavab olaraq sabiq nazir dindar şəxs olduğunu və yalan danışa bilməyəcəyini bildirib. Daha sonra hiddətlənən Sarkisyan bildirib: "Əgər sən dindar şəxssənsə, onda niyə mənim qanunsuz tapşırıqlarımı yerinə yetirdin və dövlətə ziyan vurdun?"

Nəşr yazır ki, bu zaman Sarkisyan təhqiramiz ifadələr də işlədib. "Qraparak" vurğulayır ki, Karapetyan bu günlərdə digər şəxslərin də Sarkisyana qarşı ifadə verməsi üçün iş aparıb.

Qeyd edək ki, Ermənistanın sabiq prezidenti 2013-cü ildə "Fleş" şirkətinə himayədarlıq etməkdə ittiham olunur. Belə ki, şirkət, daha artıq qiymət təklif (bir milyon dollar fərqlə) etməsinə baxmayaraq, dövlət tərəfindən keçirilən tenderdə qalib gəlib. Nəticədə Ermənistan hökumətinə milyonlarla dollar zərər dəyib.

# İsveçrə məhkəməsi Ukrayna şirkətinin xeyrinə Rusiyanı 44 milyon dollar cərimə etdi




**İsveçrənin Ali Məhkəməsi Rusiyanın Ukraynanın Ukrnafta şirkətinə 44 milyon dollar cərimə ödəməli olduğuna dair qərarını təsdiq edib. Rusiya tərəfi Krımın ilhaqı ilə Ukrnafta şirkətini investiyalardan məhrum etməkdə günahlandırılır.**

Baki-xeber.com "Amerikanın səsi"nə istinadən xəbər verir ki, bu barədə məlumatı Ukrnafta şirkətinin mətbuat xidməti yayıb.

Bundan əlavə, Rusiyadan 155 min İsveçrə frankı məbləğində məhkəmə xərclərini ödəmək tələb edilib. Beləliklə də, İsveçrənin Ali Məhkəməsi Rusiyanın müraciətini ikinci dəfə rədd edib.

Rusiya rəsmiləri hələlik bu xəbərlərlə bağlı heç bir şərh verməyiblər. Ötən apreldə Beynəlxalq Arbitraj Məhkəməsi ilhaq edilmiş Krımda Ukrnafta şirkətinin mülkiyyətini milliləşdirdiyinə görə Rusiyadan Ukrayna şirkətinə 50 milyon dollardan çox cərimənin ödənməsini tələb edib.

2019-cu ilin mayında Rusiya tərəfi bu qərardan şikayəti İsveçrə Ali Məhkəməsinə təqdim etmişdi.

Ukrnafta Ukraynanın ən böyük neft şirkətidir.

Şirkətin 2015-ci ildə qaldırdığı məhkəmə iddiasında deyilirdi ki, Rusiya Krımın ilhaqı ilə Ukrnaftanın yarımadadakı 16 yanacaqdoldurma məntəqəsi üzərində mülkiyyət hüququnu pozub.

Ukrayna tərəfi bu iddiada Ukrayna Nazirlər Kabineti və Rusiya hökuməti arasında investisiyaların qarşılıqlı qorunmasına dair 1998-ci il tarixli sazişinə əsaslanıb.

# Nazir Ceyhun Bayramov yeni imtahanlar modelini tam zəruri edən çağırışları təhlil etdi...

**Azərbaycanın orta ümumtəhsil məktəblərində şagirlərin dərs yükü kifayət qədər ağırdır. Bu məsələ son illər dəfələrlə müzakirəyə çıxarılıb. Eləcə də ölkəmizdə buraxılış və qəbul imtahanlarının keçirilmə proseduru, o cümlədən, imtahan suallarının çətinliyi ilə bağlı da narazılıqlar səslənməkdədir.**



## *Kamran Əsədov: "Yenilənmə dedikdə tək imtahan iştirakçılarının biliklərini deyil, bacarıqlarını da yoxlamaq lazımdır"*

Ümumiyyətlə, tədris və qiymətləndirmə prosesinin ağır olmasına baxmayaraq, əmək bazarına çıxarılan zaman kadrların ixtisas üzrə hazırlıqlı olmadığı üzə çıxır. Belə olan halda, şagird və tələbələrin üzərinə qoyulan tədris, imtahan yükünün ağırlığının lüzumsuz olması aktual olur. Qeyd edək ki, qonşu ölkələrdə bu istiqamətdə ciddi addımlar atılır. Ölkədə təhsil sistemi ilə əlaqədar yeni model hazırlanıb. Artıq Azərbaycanda da yeni imtahan modelinin tətbiq olunması gündəmdədir.

Təhsil naziri Ceyhun Bayramov "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər" adlı konfransda çıxışı zamanı bildirib ki, ali məktəblərə qəbul üçün hazırlanan yeni imtahan modeli XXI əsrin tələb olunan bacarıqlarının ölçülməsini özündə ehtiva edir. Bu modeldə tələb olunan riyazi və məntiqi təfəkkür, mətnlə işləmək, yazı qabiliyyəti və digər bacarıqların ölçülməsi olduqca vacibdir: "İmtahan modellərinin dəyişdirilməsi təhsil sistemində tez-tez baş verən proses deyil. Biz uzun illər ərzində imtahanlar barəsində danışarkən əsasən imtahanın dürüstlüyü, ədalətliliyi prinsiplərinə diqqət etmişik. Təbii ki, bu, çox vacib və əhəmiyyətlidir. Eyni zamanda, qeyd etməliyik ki, uzun müddət ərzində ölçülməyən biliklər unudula bilər. Ona görə də bu gün əmək bazarında tələb olunan bir sıra bacarıqlara diqqət yetirdikdə tənqidi təfəkkür, qeyri-standart yanaşma, komandada işləmək, riyazi təfəkkür, kreativlik və bir sıra bu kimi kompetensiyalara diqqət yetirdikdə görürük ki, məzunlarımızın bu sahədə kifayət qədər çox axsadığı istiqamətlər mövcuddur. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, yeni imtahan modelinin tətbiqinə çox ciddi ehtiyac var. Təhsil Nazirliyi son bir neçə il ərzində Dövlət İmtahan Mərkəzi ilə bu istiqamətdə sıx əməkdaşlıq edib".

Ekspertlər də ali məktəblərə qəbulda imtahan modelinin dəyişdirilməsinin vacib olduğunu düşünürlər. Onların fikrincə, gənclərin əmək bazarı tələbinə cavab verməsi üçün müasir dövrə uyğun məntiqi bilikləri mənimsəməlidirlər.

*"Buraxılış və qəbul imtahanlarındakı fənlərin və fənlər daxilində test modelinin..."*

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni qəbul həyata keçirməyə başladı: "1992-ci ildən etibarən ali təhsil məktəblərinə qəbul prosesi mərkəzləşdirilmiş test yolu ilə həyata keçirildi. Bunun əsas səbəbi imtahan prosesinin şəffaf və ədalətli formada keçirilməsi idi. Artıq 27 ildir test yolu ilə imtahan prosesi keçirilir. Hazırda tətbiq olunan modeldə şəffaflıqla yanaşı, biliyin qiymətləndirilməsi var. Ancaq bu illər ərzində ali məktəbi bitirən şəxslərin əmək bazarının tələbinə uyğun olması sual doğurur. Nəzərə almaq lazımdır ki, əmək bazarının tələbinə cavab vermək üçün müasir çağırışlar vermək lazımdır. 2008-ci ildən etibarən orta məktəblərdə tədris kurrikulum əsasında qurulmağa başladı".

Həmsöhbətimiz hesab edir ki, imtahan modellərində yeni sistemin tətbiq olunmasına ehtiyac var: "Yenilik bir neçə istiqamətdə olmalıdır. İlk olaraq bildirim ki, buraxılış və qəbul imtahanlarındakı fənlərin və fənlər daxilində test modelinin məzmununda dəyişiklik olunmasına ehtiyac var".

Ekspert onu da əlavə etdi ki, bu günə qədər yüksək balla ali məktəbə qəbul olunan gənclər əmək bazarında böyük uğur əldə edə bilmirlər. Bunun da səbəbi onunla bağlıdır ki, keçirilən imtahanlarda yoxlama və ölçmə vasitəsi əmək bazarının tələbinə və müasir standartlara uyğun deyil: "Bu səbəbdən də yenilənməyə ehtiyac var. Yenilənmə dedikdə tək imtahan iştirakçılarının biliklərini deyil, bacarıqlarını da yoxlamaq lazımdır. İmtahan iştirakçılarının özünü ifadəetmə bacarığı da yoxlanılmalıdır. Hesab edirəm ki, imtahan modelinin yenilənməsi labüddür".

*Günel CƏLİLOVA*

# Manatla əmanətlərdə fantastik artım - yeni proses...

**Azərbaycanda banklara əmanətlərin 55,4 faizi xarici, 44,6 faizi isə milli valyutada qoyulub. Milli valyutada olan əmanətlər ötən ilin müvafiq dövrünə nisbətən 32,3 faiz artıb, xarici valyutada əmanətlər isə 5,6 faiz azalıb. 2019-cu il noyabr ayının 1-nə Azərbaycanda əhalinin banklardakı əmanətlərinin milli valyuta ekvivalentində məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,2 faiz artaraq 8811,1 milyon manat təşkil edib.**



Açıqlanan statistik rəqəmlərdən bəlli olur ki, son aylar banklara yatırılan əmanətlərdə milli valyuta üstünlük təşkil edir. Ekspertlərin fikrincə, manatla yatırılan əmanətlərin artmasının bir neçə səbəbi var. Onların fikrincə, bu artım yaxın gələcəkdə də davam edəcək.

Qeyd edək ki, milli valyutada olan əmanətlərin artmasının əsas səbəblərindən biri ödənilən faizlərlə bağlıdır. Xarici valyutada olan əmanətlərə verilən faiz miqdarının aşağı olması manatla olan əmanətlərin artımına səbəb olur. Sığortalanan əmanətlər üzrə faizlər aşağı düşdükdən sonra əhali öz əmanətini milli valyutaya çevirməyə qərar verdi. Həmçinin, manatın kursunun uzun müddət sabit qalması bu artımı bir qədər də sürətləndirir. Dünya bazarlarında neftin qiymətinin son zamanlarda dəyişməsi də manata olan inamın artmasına səbəb olub.

Ekspertlər dəfələrlə bildiriblər ki, manatın məzənnəsi, ən azından, ilin sonunadək sabit qalacaq. Bu səbəbdən də insanlar öz əllərində olan kapitalla daha çox vəsait əldə etmək istəyirlər. Buna görə də öz əmanətlərini banklara manat şəklində yerləşdirməyə üstünlük verirlər. Milli valyutada olan əmanətlərin həcminin yaxın gələcəkdə daha da artacağını demək olar. Çünki manatın məzənnəsinin sabitliyinə güvən var. Belə olan halda, gözləntilər milli valyutada olan əmanətlərin ilin sonunadək daha da artacağı istiqamətindədir.

Onu da qeyd edək ki, manatla olan əmanətləri stimullaşdıran əsas məsələlərdən biri də bankların manatla olan əmanətə illik təqribən 10 faiz təklif etməsidir. Xarici valyuta ilə yatırılan əmanətə təklif edilən faiz isə çox aşağı həddədir. Əhali qısamüddətli gəlirliliyini təmin etmək üçün öz əmanətini manatla yerləşdirməyə üstünlük verir. Əmanətlərin manatla olan həcminin artmasının digər bir səbəbi isə Prezidentin kreditlərlə bağlı verdiyi sərəncamdan irəli gəlir. Bu sərəncamdan sonra əhali öz vəsaitinin bir hissəsini banklarda əmanət olaraq saxladı. Bütün bu faktorları nəzərə alsaq deyə bilərik ki, manatla olan vəsait qoyuluşlarının həcmindəki artım tamamilə təbiidir.

**Dollar əmanətlərinin vaxtı bitdiyi zaman daha az gəlirli olduğu üçün, əhalinin bir hissəsi öz vəsaitini milli valyutaya çevirdi. Sonda onu da vurğulayaq ki, bu artım iqtisadi islahatların nəticəsidir. Mövcud situasiyada manatla olan əmanətlərin xarici valyutada qoyulan əmanətlərlə müqayisədə artacağı ehtimal edilir. Çünki iqtisadi proseslər bunu stimullaşdırır.**

*Günel CƏLİLOVA*

# Azərbaycanda distant və onlayn təhsilin tam tətbiqinə nə mane olur...

***İlqar Orucov:** ” ...mane olan amil ali məktəblərin bu prosesə hazır olmamasıdır”*

**Ölkəmizdə ali və orta təhsil sistemində bir sıra yeniliklərin tətbiq olunması qanunvericiliyin tələblərindən irəli gəlir. Müasir Azərbaycan təhsilinin irəli getməsində şübhəsiz ki, yeni texnologiyaların, innovasiyaların yeri ayrıcadır. Dünya təhsilində yeni texnologiyalardan istifadə etmədən irəli getmək olmur.**

Azərbaycan təhsilində də texnologiyalara və innovasiyalara söykənikli yeni sahələrin inkişafı labüddür.

Ali təhsil qanunvericiliyinə görə, Azərbaycanda distant və onlayn təhsil tədris prosesinə tətbiq edilməlidir. Ölkəmizdə distant və onlayn tədris prosesinin müəyyən uğurları olsa da, bu istiqamət tam olaraq oturuşmayıb.

Prezident Administrasiyasının (PA) Qeyri-hökümət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova "Yeni imtahan modeli: islahatlar, nəticələr, gözləntilər" mövzusunda konfrasda bildirib ki, qlobal informasiya mühitində insan kapitalı iqtisadi tərəqqi və inkişafın əsas hərəkətverici qüvvələrindən biri hesab olunur.

Bu gün insan kapitalına qoyulan vəsaitlərin dövlətin ən gəlirli investiyalarından biri hesab edildiyini söyləyən S.Yusifova bildirib ki, uzunmüddətli perspektivdə insan kapitalı sosial kapitala çevrilir. Bu isə, öz növbəsində, iqtisadi inkişafa gətirib çıxarır: "Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə öz çıxışlarında qeyd edib ki, iqtisadiyyatı irəli aparan, ölkənin uğurunu nümayiş etdirən onun təbii ehtiyatları deyil, insanları, təhsili, əhalisinin intellektual səviyyəsidir. Bu gün qlobal anlamda nəsillərin dəyişməsi prosesi gedir. Artıq internetsiz dünyanı təsəvvür edə bilməyən "Zed nəsli" yetişir. Bu nəsil qloballaşma və postmodernizm dövrünü təmsil edən ilk rəqəmsal nəsildir. Onların həyata və dünyaya baxışları internetəqədərki dövrün nəsillərindən köklü surətdə fərqlənir. Onlar üçün internetdən və rəqəmsal texnologiyalardan istifadə sadəcə həyat tərzidir. Bu isə, təbii olaraq, təhsil sistemində də köklü dəyişikliklər, yeni yanaşmaları şərtləndirir" - deyə PA rəsmisi vurğulayıb. Onun sözlərinə görə, artıq bu gün gələcəyin bilik cəmiyyətinə xas olan təhsil sisteminin əlamətləri özünü göstərir: "Müasir texnologiyaların tətbiqi, yeni hədəflər təhsil müəssisələrində çevik təhsil mühitinin formalaşdırılmasını, təhsilin adi xidmətə çevrilməsini, təhsilin fərdləşməsini, biliklərin qiymətləndirilməsi və süni intellektdən isitifadəni şərtləndirir. Onlayn və distant təhsil ən vacib kəşflərdən biri hesab olunur. Passiv təhsildən aktiv təhsilə keçid 2030-cu ilə qədər yekunlaşmalıdır və bu, tipik təhsil modelinə çevriləcək. Qarışıq və mobil təhsil gələcəyin ali təhsil müəssisələrinin rəqabətqabiliyyətliyini və uğurunu müəyyənləşdirən əsas faktorlardan biri olacaq. Böyük həcmdə informasiyanın əlçatan olması, informasiya ilə işləmək və onu seçmək vərdişi tənqidi düşüncənin inkişaf etdirilməsini tələb edəcək".

O deyib ki, təhsil sistemində, xüsusilə qəbul imtahanlarında rəqəmsal texnologiyalardan istifadə ilə bağlı Azərbaycanın böyük təcrübəsi var. "Azərbaycan bu sahədə MDB məkanında pionerdir. Azərbaycanın təhsil sistemində texnoloji yeniliklərin, innovativ prinsiplərin tətbiqi, biliklərin qiymətləndirilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi dinamik xarakter daşıyır. Azərbaycanın müasir təhsil sistemi yaddaş məktəbindən təfəkkür məktəbinə keçidi özündə ehtiva edir. Buraxılış və qəbul imtahanlarında yeniliklər də məhz bu kontekstdə nəzərdən keçirilməlidir" - deyə o bildirib.



*”Azərbaycan ali məktəblərində distant və onlayn tədris prosesi həyata keçirilərsə, bu, ölkəmiz üçün kənardan böyük kapital cəlb edilməsi deməkdir”*

Azərbaycanda distant və onlayn təhsilin tam tətbiqinə nə mane olur?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov bizimlə söhbətində bildirdi ki, Prezident Administrasiyasının rəsmisi də çıxışında ölkə təhsilində onlayn və distant təhsilin reallaşdırılmasını və geniş tətbiq edilməsini qeyd edib. "2030-cu ilə qədər ölkə təhsilində onlayn və distant təhsilin tətbiqinin başa çatdırılması gecdir, təxirəsalınmadan onlayn, distant təhsilin tətbiqinə başlamaq lazımdır. Bu gün dünya təhsilində ən böyük çağırışlardan və tətbiqlərdən biri məhz distant təhsildir. Distant təhsil məkanından və zamanından asılı olmayaraq, insanların təhsil almaq imkanlarını əlçatan edir. Bu baxımdan da biz dünyanın çağırışlarına cavab vermək istəyiriksə, burada distant təhsilin tətbiqinə xüsusi əhəmiyyət verməliyik. Azərbaycanda təhsil standartlarının dəyişdirilməsi və təkmilləşdirilməsi məsələsinə digər qurumlar da toxunub. Biz gecikmədən ali məktəblərimizin maddi-texniki bazasını, kadr potensialını tamamilə yeni sistemə uyğunlaşdırmalıyıq ki, bu sahədə uğur əldə edə bilək. Artıq qısa müddətdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə UNEK-də distant təhsil verən Çin dilini tədris edən bir mərkəz açıldı. Bizdə hələ ki, distant təhsil sahəsində ilk addımı UNEK atıb, bu da davam etdirilməlidir. Azərbaycanda digər ali məktəblər də yeni növ təhsil vermək təcrübəsini artırmalı və formalaşdırmalıdırlar. Dünyanın nüfuzlu alimləri distant, onlayın təhsil verməyə çoxdan başlayıb və burada insanlara təhsil üçün böyük imkanlar açılır. Azərbaycanda distant, onlayn təhsilin hələ ki, tam olaraq tətbiq edilməməsinə mane olan amil ali məktəblərin bu prosesə hazır olmamasıdır. Ali təhsil müəssisələrimizin yenilənməsi istiqamətində işlər gedir. Artıq Prezident İlham Əliyev tərəfindən universitetlərimizin rəqabətədavamlılığının təmin edilməsi ilə bağlı proqram imzalanıb və bu proqramın ayrı-ayrı bəndləri tətbiq edilməyə başlayıb. Azərbaycan ali məktəblərində distant və onlayn tədris prosesi həyata keçirilərsə, bu, ölkəmiz üçün kənardan böyük kapital cəlb edilməsi deməkdir" - deyə qeyd edən İ.Orucov bildirdi ki, bu proqramda əks olunan bəndlərdən biri gənclərimizin xaricdə doktorantura təhsili alması ilə bağlıdır.

O gənclər ölkəmizə qayıtdıqdan sonra ali məktəblərimizdə bir sıra yenilikləri daha sürətlə tətbiq etmək mümkün olacaq.

***İradə SARIYEVA***

# Uşaqlarda qəribə virus yayılıb - şübhələr Ukraynaya yönəldi...

**Son vaxtlar Azərbaycanda əhali, xüsusilə uşaqlar arasında yeni bir xəstəlik yayılıb. Həkimlər bədəndə səpki, ishal, qusma simptomları ilə müşayiət olunan bu xəstəliyin koksaki virusu olduğunu bildirirlər. Səhiyyə Nazirliyi açıqlamasında ölkədə bu virusun olduğunu təsdiqləyib.**



***Respublika Gigiyena və Epidemiologiya Mərkəzi - Afaq Əliyeva:** "Koksaki virusunun olması, ölkədə yayılması ancaq laborator yolla təsdiqini tapa bilər"*

***Nəsib Quliyev:** "Bir-iki nəfərdə virusun aşkar olunması onun ciddi şəkildə yayılması demək deyil"*

***Adil Qeybulla:** "Koksaki virusu Azərbaycana Ukraynadan keçib"*

Nazirlikdən bildirilib ki, Azərbaycanda koksaki virusuna yoluxma halları var. Artıq bəzi şəxslərə koksaki diaqnozu qoyulub.

Qeyd edək ki, hüceyrədaxili parazit sayılan koksaki virusuna yoluxan insanlarda qızdırma, ishal əlamətləri, səpki özünü göstərir. Koksaki virusu qrip virusu kimi insanlara daha çox hava-damcı yolu ilə keçir. Buna görə də xəstəlik insanlar arasında sürətlə yayılır. Bu virusa məktəbəqədər və məktəbyaşlı uşaqlar daha çox yoluxurlar.

Onu da bildirək ki, adıçəkilən virusun ölkəyə Ukrayna vasitəsilə keçdiyi bildirilir. Hazırda Ukrayna vətəndaşları koksaki virusundan əziyyət çəkirlər. Həmin ölkədən ölkəmizə gələnlər müxtəlif yolla qeyd olunan virusu vətəndaşlara yoluxdurublar.

Səhiyyə Nazirliyinin baş infeksionisti Cəlal İsayev mediaya açıqlamasında qeyd edib ki, bu xəstəliyin diaqnozu reaktivlərlə qoyulur: "Qeyd olunan xəstəliyə yoluxanlar həkim nəzarəti altında müalicə olunmalıdırlar. Onlar gün ərzində çoxlu maye qəbul etməli, qidalanma zamanı meyvə-tərəvəzdən istifadəyə üstünlük verməlidirlər. Koksaki virusuna yoluxan bəzi şəxslərdə mədə-bağırsaq pozğunluğu da olur. Bunu da qidalanma zamanı nəzərə almaq lazımdır. Onu da qeyd edim ki, adətən koksaki xəstəliyinə yoluxanlar bunu yüngül keçirir, onun orqanizmdə elə bir fəsadı olmur. Amma xəstə özbaşına dərman qəbul etməməli, müalicəsini həkim nəzarəti altında aparmalıdır".

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun epidemiologiya məsələləri üzrə müavini Afaq Əliyeva bizimlə söhbətində bildirdi ki, koksaki virusu Azərbaycanda qeydiyyata alınmayıb: "Bizdə, ümumiyyətlə, indiyə qədər koksaki virusu qeydə alınmayıb. Bu virusun olması ancaq laborator yolla təsdiqini tapa bilər. Belə halda, virusun olduğu qeydiyyata alınır".

Pediatr Nəsib Quliyevin sözlərinə görə, bu virus epidemik halda yayılmayıb, tək-tək yoluxma var: "Koksaki virusuna ilk dəfə ABŞ-ın Koksaki şəhərində rast gəlinib. Bu virus uzun müddətdir ölkəmizdə müşahidə edilir. Əslində, bu virusun ölkəmizdə yayıldığını demək düzgün deyil. Çünki epidemik halda yox, tək-tək xəstələrdə tutulma olur. Payız, qış aylarında uşaqlar arasında xəstəlik törədən viruslara yoluxma halları daha çox baş verir. Bu elə də sensasion hal deyil. Bir-iki nəfərdə virusun aşkar olunması onun ciddi şəkildə yayılması demək deyil".

Professor, həkim-ekspert Adil Qeybulla bildirdi ki, Azərbaycanda xüsusən uşaqlar arasında bədəndə səpki, ishal, qusma simptomları ilə müşayiət olunan koksaki virusu xəstəliyi son zamanlar geniş yayılıb: "Koksaki virusu Azərbaycana Ukraynadan keçib. Virus həyatın qeyri-hüceyrəvi formasıdır. İstər qrip, istərsə də virusun digər növləri olsun, bütün bunlar orqanizmə, genlərə dağıdıcı təsir göstərir. Virusların hər bir ştamının insan sağlamlığına müxtəlif cür təsirləri olur".

Həmsöhbətimiz koksaki virusuna qarşı mübarizədə sərhəd nəzarətini gücləndirməyi tövsiyyə etdi: "Bu cür infeksiyalar yayılanda, ilk növbədə, sərhəd zonalarında nəzarəti gücləndirməliyik. Elə bir şərait yaratmalıyıq ki, belə şübhəli xəstəliklər mümkün qədər Azərbaycan sərhədini keçməsin. Bu xəstəliyə tutulanları karantində saxlamaq lazımdır. Çünki infeksiya həmişə olmur. Baş verən halda isə dediyim tədbirlər görülməlidir. Belə hallarda xəstələr izolyasiya olunmalıdırlar. Qeyd olunan virusun digərlərinə keçməsinin qarşısını almaq üçün dərhal izolyasiya olunmalıdırlar. İstənilən belə infeksiyalar zamanı yüksək hərarət, ümumi halsızlıq və s. nəzərə çarpır. Bunlar olduğu halda, həmin şəxslər digərlərini yoluxdurmamaq üçün mütləq izolyasiya olunmalıdırlar. Yəni karantin tədbirləri görülməlidir. Bu kimi tədbirlər görülməsə, həmin infeksiyanı lokallaşdırmaq mümkünsüzdür. Nəticədə böyük insan qrupu belə virus xəstəliyinə tutulur. Hətta koksaki virusu zamanı bəzən müəyyən fəsadları, ağırlaşmalar qalır. Onun yaratdığı dərin təsirlərin fərqində olmadığımız halda ola bilər ki, həmin viruslar bir müddət sonra hansısa bir xəstəliyin əsasını qoysun.

Ona görə də bu məsələdə diqqətli olmaq lazımdır. Qarşıdan qış fəsli gəlir və bu dövrdə həmin infeksiyanın yenidən artması təhlükəsi gözlənir. Gürcüstan, digər qonşu ölkələr, habelə Avropadan belə infeksiyalar daxil ola bilər. Bir ara quş qripi də məhz bu şəkildə yayılmışdı. Yalnız Ümumdünya Səhiyyə Təşkilatının köməyilə onu lokallaşdırmaq mümkün oldu. Təəssüflər olsun ki, koksaki virusuna ölkədə nə qədər insanın tutulduğu barədə bir söz deyə bilməyəcəyik. Rəsmi statistika da bəzən dəqiq demir".

***Günel CƏLİLOVA***

№ 227 (4125) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

20 DEKABR 2019-cu il

www.baki-xeber.com



## Yaponiyada tәqaüdçülәri ekzoskeletlә tәmin etmәyә başlayıblar

**Yaponiyada tәqaüdçülәrin әmәyindәn istifadә etmәk üçün onları ekzoskeletlәrlә tәmin etmәyә başlayıblar.**

Bu haqda "New Scientist" nәşri yazıb. "İctnews.az" bildirir ki, mәsәlә ondadır ki, Yaponiyada әhalinin 28%-ni 65 vә daha yuxarı yaşlı insanlar tәşkil edir. Bununla әlaqәdar olaraq ölkәdә tikinti, kәnd tәsәrrüfatı vә istehsal sahәlәrindә işçi çatışmazlığı yaranıb. Bir sıra şirkәtlәr yaranmış vәziyyәtdәn maraqlı çıxış yolu tapıblar. Onlar öz yaşlı işçilәrini tәxminәn 25 kq ağırlığında yükü asanlıqla qaldırmağa imkan verәn ekzoskeletlә tәchiz etmәyә qәrar veriblәr. Avadanlığın dәyәri 1300 dolları ötmür, konstruksiya isә mühәndislәrә enerjidәn asılılıq problemindәn qurtulmağa imkan verib. Yeni ekzoskeletlәr insan gücündәn "enerji toplayır" vә sıxılmış hava ilә işlәyirlәr. Artıq bir sıra innovativ şirkәtlәrdә ilk belә qurğuların tәtbiqinә başlanılıb. Sınaqlar uğurlu olduğu tәqdirdә bütün tәqaüdçülәr ekzoskeletlә tәmin edilәcәk.

## "Nar"ın dәstәyilә keçirilәn intellektual yarışda "Bilik" kuboku uğrunda mübarizә davam edir

**Ölkәnin әn gәnc mobil operatoru "Nar"ın dәstәyilә keçirilәn "Breyn Rinq" intellektual yarışlarında "Bilik" kuboku uğrunda mübarizә davam edir. Yarışlarda respublikanın 15 bölgәsini vә 11 ali mәktәbini tәmsil edәn 34 komanda iştirak edir.**

Xatırladaq ki, birinci yarımilin vә ilk kubokun sahibi "Nar" komandası olub. Dekabrın 29-u İctimai Televiziyanın efirindә yayımlanacaq "Breyn Rinq" yarışında "Bilik" kubokunun qalibi müәyyәnlәşәcәk. Bundan sonra komandalar son oyunda Azәrbaycan çempionu adı uğrunda yarışacaqlar.

"Nar", әnәnәvi olaraq, "Breyn Rinq" intellektual yarışlarının yayımı zamanı televiziya tamaşaçıları üçün dә xüsusi müsabiqә keçirir. Mobil operatorun rәsmi "Facebook" sәhifәsindә keçirilәn müsabiqәdә son ayın qaliblәri Abdulmahmud Bәkirzadә, Könül Mikayılova vә Emin Əbdürәhmanov olub.

Gәnclәrin maariflәnmәsinin, dünyagörüşünün vә analitik düşüncә bacarığının inkişafının cәmiyyәt üçün әhәmiyyәtini anlayaraq, "Nar" öz Korporativ Sosial Mәsuliyyәt strategiyası çәrçivәsindә ilboyu müxtәlif layihәlәrә dәstәk verir, "Breyn Rinq" bilk müsabiqәsi dә bunlardan biridir.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97,7%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 8600-dәn artıq baza stansiyası ilә 2,3 milyona yaxın abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## "Azercell" vә Azәrbaycan Beynәlxalq Bankından ölkәmizdә bir ilk!

**Ölkәnin rәqәmsal hәllәr tәqdim edәn lider mobil operatoru "Azercell Telekom" regionun aparıcı bankı Azәrbaycan Beynәlxalq Bankı ilә birgә abunәçilәri üçün xüsusi kobrend kart tәqdim edib.**

Bu kart öz sahibinә gündәlik xәrclәrindәn әlavә qazanc әldә etmәk fürsәti yaradır. Belә ki, kart sahibi nağdsız ödәnişlәr zamanı hәr 1 manat üçün 1 bal әldә edәrәk, toplanmış balları şәbәkәdaxili danışıq dәqiqәlәrinә vә ya meqabaytlara dәyişә bilәr. Bu imkandan yararlanmaq üçün müvafiq açar sözünü 2937 qısa nömrәsinә SMS vasitәsilә göndәrmәk kifayәtdir. Kart üzrә SMS xәbәrdarlıq vә nağdlaşdırma xidmәti üçün heç bir komissiya tutulmur.

Müddәti 4 il olan kartı istәnilәn "Azercell" abunәçisi 24 dekabrdan etibarәn cәmi 20 manat ödәmәklә Azәrbaycan Beynәlxalq Bankının bütün filial vә şöbәlәrindәn әldә edә, elәcә dә bankın rәsmi internet sәhifәsindәn sifariş verә bilәr: https://ibar.az/az/azercell-co-brand/

"Azercell" şirkәtinin prezidenti Vahid Mürsәliyev: "Texnologiyaların sürәtlә inkişaf etdiyi bir zamanda bizim ölkәnin aparıcı mobil operatoru kimi әn böyük vәzifәmiz istifadәçilәrimizin gündәlik hәyat proseslәri vә işgüzar әmәliyyatlarının daha da rahat şәkildә yerinә yetirilmәsi üçün yeni mәhsul vә hәllәrin işlәnib hazırlanmasıdır. Bu baxımdan, strateji tәrәfdaşımız olan Azәrbaycan Beynәlxalq Bankı ilә müştәrәk şәkildә istifadәyә buraxılan kart bir әmәliyyat zamanı "Azercell" abunәçilәrinә ikiqat fayda qazandıraraq onların hәyatını daha mobil etmәyә imkan yaradacaq".

Azәrbaycan Beynәlxalq Bankının İdarә Heyәtinin sәdri Abbas İbrahimov: "Bu kartın әn mühüm özәlliyi Azәrbaycan bazarında hәr biri öz sahәsinin lideri olan iki böyük şirkәtin tәrәfdaşlığının nәticәsi kimi ortaya çıxmasıdır. Ümid edirik ki, tәrәfdaşlıq layihәlәrimiz bundan sonra da davamlı olacaq. Azәrbaycan Beynәlxalq Bankı vә "Azercell"in birlәşәn imkanları insanlarımızın hәyatına yeni faydalar gәtirәcәk".

Kobrend kartlarını AZN-lә yanaşı, USD vә EUR hesablarında da aktivlәşdirmәk mümkündür. Azәrbaycan Beynәlxalq Bankının "Qayğıkeş" layihәsi çәrçivәsindә bankla tәrәfdaş mәkanlarda bu kartla vә bankın POS-terminalları ilә ödәniş zamanı müştәri xәrclәdiyi vәsaitin 20%-dәk hissәsini dәrhal kart hesabına geri alır. Tezliklә kartın kredit imkanları da müştәrilәrin istifadәsinә tәqdim edilәcәk.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt etmәk olar.





**Qoç** - İstәyirsiniz ki, gün çox maraqlı vә xoş keçsin. Ancaq nahaq yerә. Bu gün heç dә sizin istәdiyiniz kimi olmayacaq. Əslindә isә siz işin gedişatını dәyişmәk istәsәniz dә, bunun heç bir nәticәsi olmayacaq.



**Buğa** - Hәyat tonusunda azalma tendensiyası hiss olunur. Buna görә dә, yüklәnmәnin düzgün bölünmәsi, günün rejiminә әmәl edilmәsi vә düzgün qidalanma vacibdir. Orqanizmin möhkәmliyini yoxlamağa ehtiyac yoxdur.



**Əkizlәr** - Tәrәfdaş vә müttәfiqlәrdәn vaxtında gәlәn dәstәk sayәsindә bir çox işlәrdә әla nәticәlәrә nail olacaqsınız. Minnәtdarlığınızı ifadә etmәkdәn çәkinmәyin, bu, әlaqәlәrin möhkәmlәnmәsinә yardımçı ola bilәr.



**Xәrçәng** - Maraqlı işgüzar tәkliflәr ala bilәrsiniz. Bir çox xәrçәnglәr fәaliyyәt sahәsini dәyişә bilәrlәr vә bundan peşman olmayacaqlar. Siz olduqca hissiyyatlısınız, intuisiyanız olduqca güclüdür.



**Şir** - Yüngül vә harmonik bir gündür. İnsanlarla ünsiyyәtdә heyrәtamiz zirәklik nümayiş etdirirsiniz ki, bu hәtta ümumi dil tapa bilmәdiyiniz insanlarla münasibәtlәri qaydasına salmağa kömәk edir.



**Qız** - İşlәr çox olacaq, lakin onların heç biri sizdә sәmimi maraq yaratmayacaq. Başlanmış işlәri sona çatdırmaq üçün siz özünüzü әlә almalısınız. Sizin işә yanaşma tәrziniz rәhbәrliyin xoşuna gәlmir.



**Tәrәzi** - Mәnfi nәticәlәr verәn bәzi anlaşılmazlıqlar ola bilәr. İndi baş verәnlәrin vacibliyini anlamaq vә düzgün strategiya seçmәk sizin üçün çәtindir. İş hәyatında münasib vaxtın gәlmәsini gözlәmәk daha mәqsәdәuyğundur.



**Əqrәb** - Düşünülmәmiş hәrәkәtlәrә yol vermәsәniz, çox yaxşı gün hesab olunur. Ancaq bu hәrәkәtlәrә şövq edәn mәqamlar çox olacaq. Tәdbirli vә ehtiyatlı olmaqla problemlәrdәn yan keçmәk olar, lakin bu mәqam bütün әkizlәrә aid deyil.



**Oxatan** - Gün o qәdәr dә pis deyil, lakin emosional fonun gәrginliyi hәr şeyi korlayır. Mәhz buna görә qıcıqlanmağa yaxınsınız vә insanlarla ünsiyyәtdәn tez bezirsiniz. Günün ortasında әl-qolunuzu bağlayan hәyәcan hiss edә bilәrsiniz.



**Oğlaq** - Lazımi informasiyaları almaq vә sizә yardım edә bilәcәk adamlarla görüşә nail olmaq üçün inadkarlıq göstәrmәk lazımdır. Vacib sәnәdlәri qaydasında saxlamaq lazımdır. Qarmaqarışıqlıq uğursuzluğa sәbәb ola bilәr.



**Dolça** - İşgüzar fәallıq hәmişә olduğundan bir qәdәr aşağı sәviyyәdәdir. Siz asta vә mәhsuldar işlәyәcәksiniz. Əmәkdaşlarınız vә dostlarınız sizi ruhlandırmaq vә ya tәlәsdirmәyә çalışacaqlar, lakin bu, sizi әsәbilәşdirәcәk.



**Balıqlar** - Bu gün bir qәdәr uğursuz ola bilәr. Sizin әhvalınız yaxşı deyil, arabir üreyinizә daman fikirlәr sizi narahat edir vә әn pisi odur ki, bu ürәyә dammaların çoxu gerçәk olur. Maliyyә çәtinliklәri, lüzumsuz xәrclәr vә itkilәr mümkündür.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Kefaloniyada qәdim Roma gәmisi aşkar edilib



**Yunanıstanın Kefaloniya adasında Fiskardo limanı yaxınlığında eramızın birinci minilliyinә aid olan Roma gәmisi aşkar edilib.**

"AZƏRTAC" bildirir ki, gәmidә 6 min amfora tapılıb. Gәminin hissәlәri dәnizdә batıb. Arxeoloqların mәlumatına әsasәn, Fiskardo limanı yaxınlığında tapılan gәmilәr arasında bu gәmi әn böyüyüdür vә limanın qәdim zamanlardan әhәmiyyәtini tәsdiq edir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.